21 sentyabr 2022 №69 (1942)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları

## Beynəlxalq konfransda mədəniyyətimizin dünya yaradıcı sənaye bazarında yeri və inkişaf istiqamətləri müzakirə olunub

19-20 sentyabr tarixlərində Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransın birinci iş günü mədəniyyət paytaxtımız Şuşada, ikinci günü Bakıda gerçəkləşib.

"Şuşa İli" çərçivəsində #think4culture çağırışı ilə gerçəkləşən tədbir ölkəmizdə mədəniyyət iqtisadiyyatının inkişaf perspektivlərinə həsr olunub. Beynəlxalq konfransa Türkiyə, Böyük Britaniya, İsrail, Almaniya, Hindistan, Qazaxıstan və digər ölkələrdən sahə üzrə ekspertlər, eləcə də yerli mütəxəssislər qatılıblar.




Sentyabrın 20-də Bakıda beynəlxalq konfransın panel iclasları keçirildi. Tədbirdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, millət vəkilləri və digər rəsmilər, müxtəlif ölkələrdən şirkətlərin rəhbər və əməkdaşları, mədəniyyət sahəsi üzrə mütəxəssislər iştirak edirdilər.

Konfransın moderatoru, startaplar üzrə ekspert Tal Katran (İsrail) iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini yüksək qiymətləndirdi.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək bildirdi ki, konfransa 15 ölkədən qonaqlar qatılıb. Onlar mədəniyyət paytaxtımız Şuşaya və digər rayonlara səfər ediblər. Şuşada çox önəmli fikir mübadiləsi aparılıb. Bu tədbir də Qarabağa qayıdışımızın, oradakı bərpa işlərimizin bir parçasıdır, bir mərhələsidir. Həm oradakı 30 illik dağıntı və vandalizmi, həm də bugünkü inkişafı əyani şəkildə görmək və təbliğatını aparmaq baxımından bu konfrans mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın tarixinin ən önəmli səhifələrindən birini yaşadığını vurğulayan nazir müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək mühüm vəzifələrin olduğunu diqqətə çatdırdı: "44 günlük Vətən müharibəsindən və Zəfərdən sonra bizim qarşımızda mühüm vəzifələr durur. Bu vəzifə əzəli yurd yerlərimizin dirçəldilməsindən ibarətdir. Biz işğaldan azad olunmuş ərazilərə həm də özlərinə xas mədəniyyəti qaytarmalıyıq və qaytarırıq. Şuşada və işğaldan azad olunmuş digər ərazilərdə keçirilən silsilə tədbirlər də buna misaldır".

Anar Kərimov bildirdi ki, Mədəniyyət Nazirliyi tərəfindən yaradıcı sənayelərin inkişaf etdirilməsinə çox böyük önəm verilir: "Nazirliyin dəstəyi ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyası təsis edilib. Yaradıcı sənayelərin və bu sahənin iqtisadiyyata töhfəsinin artırılmasını diqqətdə saxlayırıq. Mədəniyyət və yaradıcı sənayelər "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da inkişaf perspektivləri olan prioritet sahə kimi öz əksini tapıb. Bizim başlıca vəzifəmiz isə həmin yaradıcı fəaliyyəti olan qurumlara müdaxilə etməməkdir. Əksinə, onları vahid qüvvə kimi birləşdirib özəl sektorlarla dövlət qurumları arasında körpü rolunu oynamaqdır. Bu baxımdan dəfələrlə yaradıcı sənaye ilə məşğul olan qurumlarla, sektorun təmsilçiləri ilə görüşlər keçirilir, onların təklifləri dinlənilir".

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev söylədi ki, hazırda dünya iqtisadiyyatında qeyri-müəyyənliklər daha da artıb. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatında yüksək artım davam edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov vurğuladı ki, xalqın mədəni səviyyəsi hər bir ölkənin inkişafına təsir göstərir: "Otuz ilə yaxın idi ki, torpaqlarımız işğal altında idi. İşğal dövründə düşmən mədəni abidələrimiz, məhv edib. Bu gün infrastruktur layihələrlə yanaşı, mədəni abidələrimiz də bərpa olunur. Əsas vəzifəmiz mədəni irsimizi gələcək nəsillərə çatdırmaqdır".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva söylədi ki, torpaqlarımızın işğaldan azad edilməsi mədəniyyətin barbarlıq üzərində qələbəsi idi: "Mən düşünürəm ki, bu tədbirin Şuşadan başlayıb Bakıda davam etməsi də buna görədir. Qonaqlarımız işğaldan azad edilmiş torpaqlarımızı ziyarət edərkən düşmənin dağıdıcı, dövlətimizin isə qurucu mədəniyyətini gördü. Təəssüflər olsun ki, bu gün özünü dünyada mədəni ölkə adlandıran bəzi dövlətlər qurucu mədəniyyətin deyil, dağıdıcı mədəniyyətin yanındadır. Mədəniyyət sahəsi Azərbaycan üçün həmişə prioritet olub. Mədəniyyət iqtisadiyyatına təkcə gəlir mənbəyi kimi baxmamalıyıq. Bu anlayış dövlət üçün, xalq üçün, onun mədəniyyəti üçün fərqli-fərqli imkanlar açır".

***davamı səh. 2-də***

## Əsas məqsəd mədəniyyətimizin potensialının müəyyən edilməsidir

Sentyabrın 19-da Şuşada işə başlayan elmi-praktik konfransda əvvəlcə son günlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi təxribat nəticəsində şəhid olan hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqləri ilə startaplar üzrə tanınmış mütəxəssis, israilli ekspert Tal Katran, Azərbaycan mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov çıxış ediblər.

İsrailli ekspert Tal Katran bildirib ki, ötən gün qonaqlar üçün maraqlı olub. Şuşaya səfər zamanı gördüklərimiz bizə həm kədərli, həm də sevincli hisslər yaşadıb. Törədilən dağıntılardan sonra Qarabağın sürətlə bərpası və əvvəlki vəziyyətinə qayıtmasını görmək bizi valeh edib.



"Bu gün dünyada mədəniyyət və yaradıcı sahədən iki trilyon dollara yaxın gəlir əldə olunur. Biz konfransda məhz bunu müzakirə edəcəyik. Qarabağın gələcəyi barədə müzakirələrin aparılacağı tədbirlər davamlı olaraq keçiriləcək", – deyə o bildirib.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxışında bildirib ki, bu cür tədbirlərin keçirilməsində əsas məqsəd torpaqlarımızın işğaldan azad olunmasından sonra bu ərazilərdə mədəni və yaradıcı sənayelərin inkişafına töhfə verməkdən ibarətdir. Qeyd edib ki, Şuşa Azərbaycan mədəniyyətində müstəsna yerə malikdir, burada Azərbaycan mədəniyyətinə töhfəsini vermiş dahi şəxsiyyətlər dünyaya göz açıb.

"Konfransın əsas məqsədi Azərbaycan mədəniyyətinin potensialının müəyyən olunmasıdır. Azərbaycan mədəniyyətinin fərqli cəhətlərindən biri onun sülhsevərliyidir. Mədəniyyətimiz insansevərdir, nifrət və dözümsüzlük yaymır. İstəyirik ki, bizim mədəniyyətimiz dünyanın yaradıcı sənaye bazarında öz yerini tutsun, onun yaratdığı zövq iqtisadiyyatımıza töhfə versin, mədəniyyət xadimlərinin yaratdığı məhsul dünyada tanınsın. Bizim mədəni iqtisadiyyatda çox böyük potensialımız var", – deyə nazirin birinci müavini diqqətə çatdırıb.

***davamı səh. 2-də***

## Musiqi festivalında ustad dərsləri və konfrans

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı (18-26 sentyabr) müxtəlif tədbir, təqdimat və ustad dərsləri ilə davam edir.

Sentyabrın 19-da festival çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) böyük zalında Alfred Korto adına Paris Ali Musiqi Məktəbinin piano müəllimi, professor A.İppolitova-İvanova adına beynəlxalq mükafat laureatı həmvətənimiz Rəna Şereşevskayanın ustad dərsi keçirilib.

Sentyabrın 20-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) "Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbirdə mövzu ilə bağlı musiqişünasların məruzələri dinlənilib.

***səh. 3***



## Şuşada, Üzeyir bəyin heykəli önündə...

Sentyabrın 20-də Şuşada Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert proqramı təqdim olunub.



Üzeyir Hacıbəylinin Şuşada bərpa olunan heykəli önündə açıq havada, dahi bəstəkarın erməni vandalizminə məruz qalmış ev-muzeyinin yanında təşkil olunan tədbirdə Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İştirakçıları salamlayan Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, bu gün biz Şuşada milli musiqimizi eşidirik və bu bizi çox qürurlandırır: "Şuşamızın, ümumən bütün torpaqlarımızın azadlığı uğrunda öz canlarından keçərək şəhid olmuş əsgər və zabitlərimizin ruhu qarşısında baş əyirik".

Konsertdə Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) çıxış edib. Ü.Hacıbəylinin və dahi sənətkarın yetirmələri olan bəstəkarların əsərləri səslənib.

## UNESCO qarşısında Qərbi Azərbaycanın tarixi-mədəni irsi ilə bağlı aksiya

UNESCO-da "Mədəniyyətlərarası dialoqun yaradılması" mövzusunda tədbir keçirildiyi vaxt qurumun iqamətgahı qarşısında Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dağıdılmasını əks etdirən sərgi xarakterli aksiya başlayıb.



Üç gün davam edəcək aksiya Sərhədsiz Ədalət və Hüquqlar (Justice et Droits Sans Frontières) Assosiasiyası tərəfindən təşkil olunub.

Təşkilatçılar uzun illər Ermənistan ərazisində Azərbaycan xalqına qarşı sistemli şəkildə yürüdülmüş deportasiya, etnik təmizləmə, soyqırımı və Azərbaycan xalqının mədəni irsinə qarşı kultursid (mədəni soyqırımı) siyasəti nəticəsində insan hüquqları sahəsində qəbul edilmiş çoxsaylı beynəlxalq müqavilələrdə əksini tapmış norma və qaydaların pozulmasına, əsas vəzifəsi dünya mədəni irsini qorumaq olan UNESCO-nun Ermənistanda Azərbaycan tarixi və mədəni abidələrinin dağıdılmasına laqeyd qalmasına etiraz ediblər. Sərgidə Ermənistanın məqsədyönlü şəkildə Azərbaycan tarixi və mədəni irsinə qarşı vandalizm siyasəti aparmaqla tarixi və mədəni irsimizi tamamilə məhv etdiyi diqqətə çatdırılır.

Aksiyada Ermənistanda, xüsusilə də İrəvanda dağıdılmış Azərbaycanın tarixi və mədəni irs abidələrinin əvvəlki şəkilləri ilə bərabər, bugünkü vəziyyəti də nümayiş olunur.

## Filmlərimiz Daşkənddə nümayiş etdirilib




Xəbər verdiyimiz kimi, sentyabrın 13-dən 18-dək "İpək Yolunun dürdanəsi" XIV Daşkənd Beynəlxalq Film Festivalı keçirilib. Festivala dünyanın 40-dək ölkəsindən 300-dən artıq kinematoqrafçı – rejissorlar, aktyorlar, kino sahəsinin mütəxəssisləri, eləcə də media nümayəndələri qatılıb.

Festivalda ölkəmiz də nümayəndə heyəti ilə təmsil olunub. Həmçinin 15-17 sentyabr tarixində Daşkənd və Buxara şəhərlərində "Azərbaycan kinosu günləri" təşkil edilib.

Festivalın reallaşdığı "Özbəkfilm"də Azərbaycan nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə 2021-ci ildə özbək və Azərbaycan kinematoqrafçıları arasında əməkdaşlıq və müştərək filmlərin çəkilməsini nəzərdə tutan memorandumun nəticələri müzakirə olunub. Qeyd edilib ki, memoranduma əsasən, Xalq artisti, kinorejissor Vaqif Mustafayevin müəllifi olduğu "Molla Nəsrəddin və yaxud çətin günlərimin dostu" kinolayihəsi yaxın gələcəkdə istehsalata buraxılacaq. "Azərbaycanfilm" Kinostudiyasının direktoru Nazim Hüseynov, kinoşünas, rejissor, Əməkdar incəsənət xadimi Ayaz Salayev iki ölkə arasında mədəni əlaqələrin inkişafında kino sahəsinin önəmindən söz açıblar.

***davamı səh. 8-də***

6 nömrəli Uşaq musiqi məktəbinin əsaslı təmirdən sonra açılışı olub



***səh. 5***

Üzeyir Hacıbəyliyə həsr olunan nəşrlərin təqdimatı keçirildi

***səh. 7***



Milli Xalça Muzeyində Belqrad Etnoqrafiya Muzeyinin sərgisi

***səh. 5***

əvvəli səh. 1-də

# “Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları”

## Yaradıcı sənayenin inkişafı üçün sistemli yanaşma lazımdır

Daha sonra konfrans panellərlə işini dam etdirdi. Dövlət mexanizmlərinin və təşviqlərinin yaradılması üzrə birinci panel müzakirəsində çıxış edən Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova dedi ki, bu gün mədəni turizm dünyada çox populyardır. Mədəni turizm iqtisadiyyatın aparıcı istiqamətlərindən biridir. Mədəniyyətin təbliğ olunmasında turizmin böyük rolu var.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, Mədəniyyət Nazirliyinin məqsədlərindən biri mədəniyyətə yanaşmanı dəqiqləşdirməkdir: “Bizim baxışımız sovet baxışından fərqlənir. O zaman mədəniyyət bu sahə ilə məşğul olan müəssisələrin fəaliyyəti ilə məhdudlaşırdı. Ancaq mədəniyyət daha geniş anlayışdır. Bugünkü tədbirin əsas məqsədi bu baxışı açıqlamaqdır. Mədəniyyət bütün sahələri ilə bir zövq formalaşdırır. Mədəni iqtisadiyyatın bir böyük tərəfi də qloballaşmadır. İnternetin üstünlüyü hansısa bir musiqiçinin öz əsərini dünyaya çıxarmaq imkanı verir ki, bu da qloballaşmanın nə demək olduğunu açıq-aydın göstərir”.

Elnur Əliyev vurğuladı ki, ölkəmizdə neft-qaz, kimya sənayesi barədə danışmaq mümkündür, amma yaradıcı sənayemiz yoxdur. “Bu məsələdə biz sistemli yanaşma tətbiq etməliyik. Buna görə də birinci növbədə bu istiqamətdə təbliğat işləri aparılmalıdır”, – deyə E.Əliyev əlavə etdi.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov söylədi ki, mədəniyyət və iqtisadiyyat terminlərinin bir arada səsləndirilməsi onların bağlılığından xəbər verir: “Ölkədə sosial inkişafın formalaşdırılmasında, sahibkarlıq mühitinin yaxşılaşdırılmasında mədəniyyət və yaradıcı sənayenin inkişafına diqqətin ayrılması vacib məsələlərdəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bu sahənin inkişafına da təsir edən amillərdən biridir. İqtisadiyyat Nazirliyi olaraq bu sahənin inkişafı istiqamətində lazımi tədbirlər görəcəyik”.

Mədəniyyətin geniş məfhum olduğunu deyən Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirdi ki, mədəniyyət sahibkarlıqdır, iqtisadiyyatdır, inkişafdır: “Ərazilərimizin düşməndən azad olunması Qarabağda dağıntıları tam şəkildə görməyə imkan verdi. Biz bu dərəcədə böyük dağıntıların öhdəsindən gəlməliyik. Məlum olduğu kimi, ən çox dağıntıya məruz qalan obyektlər tarixi abidə tikililərimizdir. Bununla da düşmən bizim mədəniyyətimizi silmək istəyirdi.















Dünyada buna aid nümunələr var. Amma nəzərə alsaq ki, İkinci Dünya müharibəsindən sonra Avropadakı urbisidin aradan qaldırılmasına müəyyən yardım var idi. Amma Azərbaycan bu gün Qarabağdakı dağıntıları, oradakı urbisidi özü bərpa edir, özü aradan qaldırır”.

Daha sonra çıxış edən mədəni iqtisadiyyat üzrə beynəlxalq ekspert Ornela Ramasauskaite yaradıcı ekosistemin əhəmiyyətindən danışdı: “Apardığım tədqiqatlar və oxuduğum məqalələr nəticəsində belə qənaətə gəldim ki, Azərbaycanın böyük mədəni-tarixi mirası var. Bu ölkə də dünyada baş verən yaradıcı proseslərin bir hissəsidir”.

Daha sonra konfrans iştirakçılarının sualları cavablandırıldı.

## Mədəni iqtisadiyyatın qlobal tendensiyaları

İsrailli ekspert Tal Katranın moderatorluğu ilə gerçəkləşən ikinci panel mədəni iqtisadiyyatın qlobal tendensiyalarına və 4-cü sənaye inqilab ilə yaradıcı iqtisadiyyatın kəsişməsi probleminə həsr olunmuşdu.

İlk olaraq Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov çıxış edərək hazırda dünyada qloballaşma və texnologiyanın sürətlə inkişaf etdiyini bildirdi: “Texnologiyanın yüksək inkişafı sayəsində biz öz məhsulumuzu istədiyimiz vaxt yaradıb onlayn platformaya yerləşdirərək yaxşı qazanc əldə edə bilərik. Agentlik olaraq bu sahədə bizim əsas işimiz yaradıcı insanlara dəstək verməkdir. İnanıram ki, konfransda bu sahə ilə bağlı da müzakirə aparacağıq”.

Ceyhun Salmanov bildirdi ki, yaradıcı insanlara dəstək verən layihələrdən biri də ABAD – “Ailə Biznesinə Asan Dəstək” publik hüquqi şəxsdir. Qurumun yaradılmasında məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verməkdir: “ABAD mərkəzləri tərəfindən dekorativ-tətbiqi xalq sənətkarlığı və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirilir. Hazırda 550-yə yaxın ABAD-çımız var ki, onlar istehsal etdiyi məhsullardan qazanc əldə edirlər”.

“Re-Fresh Global” (İsrail) şirkətinin həmtəsisçisi Viktoria Kanar söylədi ki, hər birimiz qlobal bir dünyada yaşayırıq və əmin olmalıyıq ki, gələcək nəsillərə sağlam ekosistem buraxacağıq.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov qeyd etdi ki, universitet tərəfindən 4-cü sənaye inqilabı ilə bağlı tədqiqat mərkəzi yaradılıb: “Təhsildə olduğu kimi, yaradıcı sənayedə istək bəllidir. Hamımız başa düşürük ki, 4-cü sənaye inqilabı bizim seçimimiz deyil. Dördüncü sənaye inqilabı Azərbaycan sənayesinin gələcək inkişafı üçün bir şansdır”.

Panelin sonunda çıxış edən “Zero Gravity Capital” (Slovakiya) şirkətinin əməkdaşı Vit Hanus Azərbaycana ikinci dəfə gəldiyini söylədi: “Burada gördüklərim məni heyran etdi. Ölkənizin çox zəngin və oturuşmuş mədəniyyəti var”.

## Yaradıcı iqtisadiyyata dəstək, maliyyəyə çıxış

Konfransın üçüncü paneli “Yaradıcı iqtisadiyyata dəstək, maliyyəyə çıxış” mövzusuna həsr olunmuşdu. Panel müzakirəsi başlamazdan əvvəl “BeNear” şirkətinin təsisçisi və baş icraçı direktoru Lyudmila Livertovski “Mədəniyyət iqtisadi inkişafın mühərriki kimi” mövzusunda çıxış etdi.

Daha sonra panel müzakirəsinə başlanıldı. İlk olaraq konfransın moderatoru Tal Katran çıxış edərək qonaqları təqdim etdi.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil və analitik informasiya departamentinin rəhbəri Rəşad Hüseynov çıxışında dedi ki, təmsil etdiyi qurumda yaradıcı sənaye və digər sahələrlə bağlı araşdırmalar aparılır: “Mərkəz olaraq ölkə başçısının iyul ayında təsdiq etdiyi “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Srategiyası”nda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirəcəyik. Monitorinqin nəticələri ilə bağlı hesabatlar hazırlanacaq. Proqramların monitorinqinə peşəkar yerli və xarici ekspertlər də cəlb olunacaq”.

İnvestisiya məsləhətçisi, şəxsi kapital mütəxəssisi Rahul Yadav bir sıra şirkətlərlə əməkdaşlıqlarının olduğunu söylədi: “Həmin şirkətlərin özləri müxtəlif inkişaf mərhələlərindədir. Biz çalışırıq ki, startaplar üçün sürətlə inkişaf edə biləcək maliyyə vasitələri tapaq”.

Maliyyə və davamlı inkişaf məqsədləri üzrə mütəxəssis Karl Rheinberger Azərbaycanda insan kapitalının inkişaf etdirilməsi üçün kifayət qədər potensialın olduğunu vurğuladı.

Daha sonra Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri Təbriz Əliyev “Azərbaycanın mədəniyyət sektorunun iqtisadi artıma təsirini formalaşdıran amillər”, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri Əlövsət Əliyev isə “Qarabağ iqtisadiyyatının mədəni sahələrinin səmərəli formalaşdırılmasında və idarə edilməsində rəqəmsal transformasiya məsələləri” mövzularında təqdimatlarla çıxış etdilər.

## Sənəti gerçəkliyə aparan mədəniyyətdir

Beynəlxalq konfrans “Yaradıcı iqtisadiyyat üçün potensialın inkişafı və təhsilin əhəmiyyəti” mövzusunda sonuncu – dördüncü panellə işini başa vurdu.

Panelin moderatoru, “Smart-Nation” platformasının rəhbəri Şəbnəm Məmmədova çıxışçıları təqdim etdi.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxışında dayanıqlı və uğurlu iqtisadiyyat məsələsinə toxunaraq qeyd etdi ki, əslində, bütün ölkələrdə qanunvericiliyi və sərmayələri tənzimləyən sənədlər, demək olar ki, eynidir: “ Bu ölkələri fərqli edən insan amilidir. İnsana gəldikdə isə insanlar fizioloji olaraq eynidir. Onları bir-birindən fərqləndirən isə mədəniyyətdir. Deməli, sənəti gerçəkliyə aparan mədəniyyətdir. Uğurlu olmaq istəyiriksə, mədəniyyətimizi tənzimləməliyik. Bizim əsrlərin süzgəcindən keçmiş mədəniyyətimiz var. Düşünürəm ki, peşəmizdən, fəaliyyət sahəmizdən və biliyimizdən asılı olmayaraq, öz mədəniyyətimizi tanımalı və ona sahib çıxmalıyıq”.

“Experience UK” Məsləhət Şurasının üzvü Emili Smit bildirdi ki, Böyük Britaniya öz sistemini elə qurub ki, onun rəssamları digər sahələrlə eyni imkanlara malik olsunlar. Britaniyada bu sahəyə dövlət tərəfindən investisiyalar ayrılır. Şuşa şəhərinə səfərin onun üçün çox unudulmaz bir xatirə olduğunu söyləyən Emili Smit vurğuladı ki, mədəniyyət iqtisadiyyatı sahəsi üzrə Şuşada müxtəlif işlər görmək üçün böyük potensial mövcuddur.

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov söylədi ki, ölkəmizdə ənənəvi mədəniyyəti iqtisadiyyatın sektoruna çevirmək üçün Qarabağdan başlamaq lazımdır.

Multidisiplinar dizayner Nejla Güvenc Türkiyədə yaradıcı mədəniyyət sahəsi ilə bağlı vəziyyət haqqında fikirlərini bölüşdü. Söylədi ki, mədəniyyət iqtisadiyyatının inkişafı üçün qeyri-hökumət təşkilatları da fəal şəkildə çalışmalıdır.

“Re-Fresh Global” şirkətinin həmtəsisçisi Revital Nadiv dedi ki, ideyaları reallaşdırmaq üçün gənclərə meydan vermək lazımdır: “Səhv etmək azadlığımız yoxdursa, yeni bir ideya yarada bilmərik. Hansısa uğursuzluqdan qorxmaq lazım deyil. Biz gənclərə bu sahədə bir sıra imkanlar aça bilərik. Bunun üçün sınaqlar keçirməliyik. Sözsüz ki, bunları təkbaşına edə bilmərik. Bu sahə üzrə müxtəlif mütəxəssislər lazımdır”.

Revital Nadiv çıxışının sonunda mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevə tekstil tullantılardan hazırlanan ətir və yeni parça növü hədiyyə etdi.

Daha sonra konfrans iştirakçılarının sualları cavablandırıldı.

Elnur Əliyev konfransda iştirak edən bütün qonaqlara təşəkkürünü bildirdi.

Sonda xatirə şəkli çəkdirilib.

**Nurəddin Məmmədli**

# Əsas məqsəd mədəniyyətimizin potensialının müəyyən edilməsidir




əvvəli səh. 1-də

İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov qeyd edib ki, bu günlərdə Azərbaycanda mədəniyyətə hər kəs, sadəcə, istehlakçı kimi baxır. O bildirib ki, konfransdan əvvəl mədəniyyət iqtisadiyyatı ilə əlaqədar araşdırmalar aparılıb. Artıq əsas etibarilə alimlər arasında bu sahəyə maraq yaranıb.

Sonra mədəniyyət iqtisadiyyatı üzrə beynəlxalq ekspert Ornela Ramasauskaite azad edilmiş torpaqlarda mədəni dirçəliş mövzusunda çıxış edib. Bildirib ki, tədbirin Şuşada keçirilməsi simvolik xarakter daşıyır. İşğal edilmiş ərazilərdə mədəniyyətin bərpası unikal hadisədir. “Mədəniyyət iqtisadiyyatı dünyada aktual mövzulardan biridir. Bu sahədə məlumatların toplanılması, statistik monitorinq sisteminin olması vacibdir. Mədəniyyət iqtisadiyyatının inkişafı üçün ölkəyə bu sahə üzrə ixtisaslaşmış şirkətləri, müxtəlif peşə sahiblərini dəvət etmək, bir araya gətirmək vacibdir”, – deyə o vurğulayıb.

## Azad edilmiş torpaqlarda mədəni dirçəliş

Konfransda “Azad edilmiş torpaqlarda mədəni dirçəliş və mədəni iqtisadiyyat” mövzusunda panel müzakirəsi aparılıb.

Startaplar üzrə israilli ekspert Tal Katranın moderatorluğu ilə keçirilən paneldə multidisiplinar dizayner Nejla Güvenc, investisiya məsləhətçisi və şəxsi kapital üzrə mütəxəssis Rahul Yadav, Azərbaycan Milli Konservatoriyasının şöbə müdiri Cahangir Səlimxanov və “Experience UK” Məsləhət Şurasının üzvü Emili Smit çıxış ediblər.

Multidisiplinar dizayner Nejla Güvenc Türkiyədə yaradıcı mədəniyyət sahəsindəki öz təcrübələrini bölüşüb. Deyib ki, mədəniyyət iqtisadiyyatının inkişafı üçün qeyri-hökumət təşkilatları da fəal şəkildə çalışmalıdır. Həmçinin bildirib ki, Türkiyədə bu sahəyə maraq son illərdə artıb: “Türkiyə bu il Avropada oyun sektoruna ən çox yatırım edən ölkədir. Həmçinin dəyişdirilə bilməyən nişanlar (non-fungible token – NFT) sahəsində də böyük inkişaf var. İnsanlar öz yaradıcılıq məhsullarını NFT şəklində virtual olaraq satışa çıxarırlar. Düşünürəm ki, Azərbaycanda da bu sahə üzrə işlər görülməlidir”.

İnvestisiya məsləhətçisi və şəxsi kapital üzrə mütəxəssis Rahul Yadav Şuşanın mədəniyyət iqtisadiyyatı sahəsində böyük potensialının olduğunu bildirib. Qeyd edib ki, Şuşa xüsusi platformaya çevrilməlidir. Bunun üçün müxtəlif qurumların, mütəxəssislərin bu sahədə vəzifələrinin təyin olunması üçün xüsusi strategiya üzərində işləmək lazımdır. “Azərbaycan hökumətinin infrastruktur və idarəetmədə böyük təcrübəsi var. Bu təcrübə vasitəsilə Şuşa böyük bir platformaya çevrilə bilər”, – deyə o əlavə edib.



Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov Şuşanın mədəni irsinin yayılması məqsədilə virtual yayımların həyata keçirilməsinin xeyirli olacağını qeyd edib. Bildirib ki, sahə üzrə peşəkar insanların buraya gəlməsi, mədəniyyət iqtisadiyyatı sahəsində işlərin görülməsi üçün imkanlar yaratmaq lazımdır.

“Experience UK” Məsləhət Şurasının üzvü Emili Smit bildirib ki, mədəniyyət iqtisadiyyatı sahəsi üzrə Şuşada müxtəlif işlər görmək üçün böyük potensial var. Diqqətə çatdırılıb ki, gələcəkdə Şuşada virtual olaraq konfransların həyata keçirilməsi, incəsənət xadimləri ilə bir sıra proqramların təşkil edilməsi mümkündür: “İnternetdə Şuşadan canlı yayın və videolar paylaşmaq olar. Mən bu şəhərdə böyük potensialın olduğunun şahidiyəm. Mədəniyyət iqtisadiyyatı üzrə müxtəlif sahələrdə reallaşdırılacaq layihələrdə bir çox qurumların iştirakı da vacib məsələdir”.

***

Sonra konfransda “Davamlı şəhərlərdə və icmalarda mədəniyyət iqtisadiyyatı” mövzusunda məruzə dinlənilib.

Maliyyə eksperti Karl Reinberger məruzə ilə çıxış edib. Məruzədə almaniyalı ekspert dünya təcrübəsindən yararlanaraq Şuşada mədəni iqtisadiyyat sahəsinin inkişaf etdirilməsi barədə danışıb. Diqqətə çatdırıb ki, geniş məlumat bazasının mövcudluğu, beynəlxalq reytinq göstəricilərində yüksək sıralarda yer alması ölkəyə investisiya yatırılması baxımından vacibdir.

“Bu il Azərbaycanda “Şuşa İli” elan olunub. Azad edilmiş ərazilərdə şəhərlərin inşasında “Ağıllı şəhər” konsepsiyasından istifadə olunması vacibdir. Bu, iqtisadi inkişafa müsbət təsir göstərir. Azərbaycanın perspektivi çox genişdir”, – deyə o qeyd edib.

## Şuşadan Şuşa üçün inkişaf impulsları

Daha sonra konfransda “Şuşadan Şuşa üçün inkişaf impulsları” mövzusunda dəyirmi masalar təşkil olunub.

Dəyirmi masalarda “Mədəni iqtisadiyyat və davamlı iqtisadiyyat azad edilmiş ərazilərdə necə sinerji və sosial təsir yaradır?”, “Mədəniyyət sektorunda dövlət-özəl tərəfdaşlığı və mədəniyyətin maliyyələşdirilməsində səmərəlilik variantları”, “Azad edilmiş ərazilərin bütövlüyü üçün cəmiyyəti bir vasitə olaraq cəlb etmək”, “Mədəniyyət ölkənin xaricdə brendinq strategiyasının fonu kimi” və “Yaradıcı sənayelərdə dairəvi iqtisadiyyat necə gəlir gətirə bilər?” mövzularında müzakirələr və fikir mübadilələri aparılıb, mövzular üzrə suallar cavablandırılıb.

Moderatorlar hər bir mövzu üzrə öz tövsiyələrini və təklifləri ni bölüşüblər.

Bununla da beynəlxalq konfrans ilk iş gününü Şuşada başa vurub.

# "Üzeyir Hacıbəyli elə bir şəxsiyyətdir ki..."

## Milli Musiqi Günü münasibətilə dahi bəstəkarın məzarı ziyarət olundu



Azərbaycan professional musiqi sənətinin və milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin (1885-1948) dünyaya gəldiyi 18 sentyabr hər il ölkəmizdə Milli Musiqi Günü ("Üzeyir musiqi günü") kimi qeyd edilir.

Bu il də mədəniyyət tariximizin əlamətdar günündə I Fəxri xiyabanda dahi bəstəkarın məzarı ziyarət olundu. Mərasimdə mədəniyyət naziri Anar Kərimov, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdilər.

Üzeyir Hacıbəylinin məzarı üzərinə əklil və gül dəstələri qoyuldu. Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) heyətinin ifasında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından "Şəbi-hicran" kompozisiyası səsləndirildi.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək bildirdi ki, 18 sentyabr mədəniyyətimizin ən əlamətdar günlərindən biridir: "Xalqımızın ölməz sənətkarları arasında Üzeyir Hacıbəylinin xüsusi yeri var. Üzeyir Hacıbəyli elə bir şəxsiyyətdir ki, məhz onun sayəsində Azərbaycan musiqisində tarixi bir dövr başlandı, klassik musiqi sənətimizin təməli qoyuldu, yeni musiqi janrları yarandı. O, mədəniyyətimizə çox böyük töhfələr verərək, milli musiqimizi dünya səviyyəsinə qaldıra bildi. Təbii ki, dövlətimiz belə şəxsiyyətləri heç vaxt yaddan çıxarmır. 1995-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Üzeyir Hacıbəylinin anadan olmasının 110 illik yubileyi münasibətilə 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alındı. Artıq neçə ildir ki, xalqımız bu günü qeyd edir. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinə böyük diqqət və qayğı göstərirlər. Onların rəhbərliyi ilə bir neçə dəfə Üzeyir Hacıbəylinin yubileyi UNESCO səviyyəsində qeyd edilib. 2009-cu ildən etibarən isə ölkəmizdə Üzeyir Hacıbəyli adına festival keçirilir...".

Nazir bildirdi ki, bu il də Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalının geniş tədbirlər planı tərtib edilmişdi. Lakin son günlər baş verən məlum hadisələrlə bağlı, Azərbaycanın sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə ehtiram olaraq festivalın proqramı dəyişdirildi.

"Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına başsağlığı verirəm. Əslində, bu il festivalı ölkəmizin bir neçə şəhərində keçirməyi planlaşdırırdıq. Düşmənin sərhədlərimizdə törətdiyi təxribatın qarşısının alınması zamanı həlak olan igidlərimizin xatirəsinə ehtiram əlaməti olaraq festivalın proqramında dəyişiklik etdik. Festivalın tədbirləri Bakıda, bir konsert isə Şuşada keçiriləcək. Bunun da bir rəmzi mənası var. Bütün bu çətinliklərə baxmayaraq Azərbaycan musiqisi Şuşada səsləndiriləcək. Bu bizim Üzeyir Hacıbəyli və şəhidlərimiz qarşısında borcumuzdur. Biz festivaldakı tədbirləri şəhidlərimizə ithaf etmək istəyirik. Bununla da bir daha göstərmək istəyirik ki, Azərbaycan xalqı qəhrəman övladlarını heç vaxt yaddan çıxarmır".

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxışında dahi bəstəkarımızın mədəniyyət tariximizdə rolunu qeyd edərək onu musiqimizin peyğəmbəri adlandırdı. Vurğuladı ki, biz həmişə Azərbaycan musiqisini dünyada təbliğ etməliyik. Bütün dünya Azərbaycan musiqisinin əzəmətini görməlidir.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi də Üzeyir Hacıbəylinin ölməz irsindən söz açdı. Bildirdi ki, Azərbaycan xalqı var olduqca Üzeyir Hacıbəylinin ölməz irsi hər zaman yaşayacaq.

Sonra mərasim iştirakçıları Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin Fəxri xiyabandakı məzarlarını ziyarət etdilər.

Ümummilli lider, mədəniyyətimizin böyük hamisi, 1995-ci ildə imzaladığı fərmanla mədəniyyət təqvimimizə Milli Musiqi Gününü bəxş etmiş Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anıldı, məzarları üzərinə tər çiçək dəstələri düzüldü.

Sonda mərasim iştirakçıları Şəhidlər xiyabanına gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən Vətən övladlarının xatirəsini yad etdilər, "Əbədi məşəl" memorialı önünə gül dəstələri qoydular.

**Nurəddin**

# Anar Kərimov Mixail Şvıdkoyla görüşüb

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 15-də Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyla görüşüb.



Söhbət zamanı Azərbaycan və Rusiya arasında mədəni əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb.

Görüşdə gələcəkdə mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı həyata keçiriləcək layihələrə dair fikir mübadiləsi aparılıb.

# Mədəniyyət naziri Latviya Milli Opera və Balet Teatrının direktorunu qəbul edib

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalında iştirak etmək üçün müxtəlif ölkələrdən musiqi xadimləri Bakıya gəliblər. Onlardan biri Latviya Milli Opera və Balet Teatrının direktoru, vokalçı Egils Silinşdir.



Mədəniyyət naziri Anar Kərimov sentyabrın 19-da Egils Silinş və xanımını qəbul edib. Latviyanın Azərbaycan Respublikasındakı Səfirliyinin əməkdaşı xanım Vija Buşa və nazirliyin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalovanın da iştirak etdiyi görüşdə iki ölkə arasında mədəni əlaqələrdən söhbət açılıb, gələcəkdə birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Latviyalı qonaqlarla Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında yaradıcı görüş də keçirilib.

# Səbail rayon Mərkəzi Kitabxanasının binası əsaslı təmirdən sonra istifadəyə verilib

Sentyabrın 18-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) Mərkəzi Kitabxanasının binasının əsaslı təmirdən sonra açılış mərasimi keçirilib.

Mərasimdə mədəniyyət naziri Anar Kərimov, nazirliyin əməkdaşları, kitabxananın kollektivi iştirak edib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev kitabxanada yaradılan şəraitlə bağlı nazir Anar Kərimova məlumat verib.

Bildirilib ki, 600 kv m sahəsi olan kitabxana müasir standartlara uyğun təmir edilib, yeni inventar və avadanlıqlarla təchiz olunub. Kitabxananın interyeri yeni üslubda, fərqli şəkildə qurulub. Yeni nəsil kompüterlər, sürətli internet və wifi zona ilə təchiz olunan kitabxanada oxucuların daha geniş məlumat əldə etmələri üçün şərait yaradılıb. Onlar latın qrafikalı əlifba ilə nəşr olunmuş elmi-kütləvi və bədii ədəbiyyat, dərsliklər, müxtəlif ixtisaslar üzrə kitablarla zənginləndirilmiş fonddan rahat şəkildə istifadə edə biləcəklər. Müasir dizaynda oxu masaları, kitab rəfləri də istifadəçi rahatlığı nəzərə alınaraq hazırlanıb.

Mədəniyyət naziri Anar Kərimov qeyd edib ki, kitabxanalar maarif, elm ocağı olduğu üçün belə bir müəssisələrin müasir tələblər səviyyəsində qurulmasının böyük önəmi var: "Çünki elm, mədəniyyət kitabdan başlayır. Sirr deyil ki, indiki dövrdə kitaba maraq getdikcə azalır. Ancaq biz kitaba və mütaliəyə olan marağı artırmaq üçün əlimizdən gələni etməliyik. Bunun üçün müasir üsullardan yararlanmalı, gənclərimizi kitabxanalara cəlb etməliyik. Mədəniyyət Nazirliyi tərəfindən də bu istiqamətdə zəruri köməklik göstəriləcək".

Anar Kərimov kitabxana kollektivinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, kitabxana 1924-cü ildə yaradılıb. 1936-cı ildən Maksim Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondu kimi fəaliyyət göstərib. 2011-ci ildə onun bazasında Səbail rayon MKS-nin Mərkəzi Kitabxanası yaradılıb. Mərkəzi Kitabxananın 6 filialı var.



Bakı şəhər kütləvi kitabxanaları arasında ilk dəfə Səbail rayon Mərkəzi Kitabxanasında elektron kataloq təşkil edilib. Burada Oxuculara xidmət şöbəsi, Uşaq şöbəsi, Komplektləşdirmə və kitabişləmə, Metodika və biblioqrafiya, İnformasiya-resurs və Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbələri fəaliyyət göstərir. Kitabxananın saytı (sabail.cls.az) və elektron kataloqu istifadəçilərin ixtiyarındadır.

Mərkəzi Kitabxana və filiallar vasitəsilə il ərzində ümumilikdə 50 mindən çox oxucu müraciəti üzrə ənənəvi və virtual xidmət göstərilir. Hazırda Mərkəzi Kitabxananın fondu 268 min nüsxə təşkil edir, oxucuların sayı 13509 nəfərdir.

# Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı davam edir





Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı (18-26 sentyabr) müxtəlif tədbir, təqdimat və ustad dərsləri ilə davam edir.

### BMA-da gənc pianoçular üçün ustad dərsi

Sentyabrın 19-da festival çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) böyük zalında Alfred Korto adına Paris Ali Musiqi Məktəbinin piano müəllimi, professor A.İppolitova-İvanova adına beynəlxalq mükafat laureatı həmvətənimiz Rəna Şereşevskayanın ustad dərsi keçirilib.

BMA-nın beynəlxalq əlaqələr və sosial məsələlər üzrə prorektoru, Xalq artisti, professor Yeganə Axundova ustad dərsinin qonaqlarını və iştirakçıları salamlayıb, Rəna Şereşevskaya ilə doğma vətənində keçirilən görüşdən məmnun olduğunu deyib.

Rəna Şereşevskaya ustad dərsinin təşkilinə görə təşəkkürünü bildirib, özü və sənəti haqqında məlumat verib.

Qeyd edək ki, Rəna Midhət qızı Şereşevskaya 1954-cü ildə Bakıda anadan olub, 1972-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirib. Sonra təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında (Lev Vlasenkonun sinfi) davam etdirib.

Ustad dərsində istedadlı gənc pianoçular – Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri Əli Vəliyev və Rəvan Paşazadə, həmçinin BMA-nın tələbələri Rəşid Behbudov və Əli Adıgözəlov Lüdviq van Bethovenin sonataları N.18, 21, Friderik Şopenin Skerzo N.1, Sergey Raxmaninovun N.6, op.39 şəkil-etüd əsərlərini ifa ediblər.

Ustad dərsi zamanı ifalarda bir sıra nüanslara diqqət yetirən Rəna xanım gənclərə tövsiyələrini verib, bilik və təcrübəsini onlarla bölüşüb. Həmçinin əsərlərin yaranma tarixinə, bədii məzmun xüsusiyyətlərinə də diqqət ayıraraq pianoçuların fikrini hər bir səslənmə və melodik dönüşün simvolik mənasına cəlb edib. O, gənc musiqiçilərin hazırlığının yüksək səviyyədə olduğunu vurğulayıb və onların müəllimlərinə təşəkkürünü bildirib.

### Bəstəkarlar İttifaqında elmi-praktik konfrans

Sentyabrın 20-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) "Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda iki böyük bəstəkar, sirdaş və sənət yoldaşı Üzeyir Hacıbəyli (1885-1948) və Müslüm Maqomayevin (1885-1937) yaradıcılığından söz açılıb.

Tədbirdə ABİ-nin katibləri – Əməkdar incəsənət xadimləri Cəlal Abbasov və Zemfira Qafarova çıxış ediblər. Sonra musiqişünasların məruzələri dinlənilib.

Konfransın proqramında "Üzeyir Hacıbəyli və Müslüm Maqomayev: məslək dostları" (professor Həcər Babayeva), "Musiqi türkologiyasının tədqiqində Üzeyir Hacıbəylinin nəzəri konsepsiyasının rolu" (AMEA-nın müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru Rəna Məmmədova), "Üzeyir Hacıbəyli irsinin təbliği" (sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı), "Azərbaycan Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli mərhələsi" (sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova), "Müslüm Maqomayevin Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu" (sənətşünaslıq üzrə fəlsəfə doktoru Jalə Qulamova), "Ü.Hacıbəyli və M.Maqomayev: monodiyadan – simfonik musiqiyə" (sənətşünaslıq üzrə fəlsəfə doktoru Sürəyya Ağayeva) və s. məruzələr yer alıb.

***

Sentyabrın 20-də festival çərçivəsində BMA-da fransız pianoçu Olivye Qardonun ustad dərsi, Beynəlxalq Muğam Mərkəzində "Cadenza" orkestrinin konserti keçirilib.

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı sentyabrın 26-da başa çatacaq.

**Lalə Savalan**

# "Cultural Network House"da görüş

"Cultural Network House" Assosiasiyası ("Mədəniyyət Şəbəkəsi Evi") ötən həftə Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Həmrəylik Vəqfinin sədri Aygün Attarın rəhbərliyi ilə Azərbaycanda səfərdə olan ATİV, TİKA, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Türk Tarix Qurumu təmsilçiləri və müxtəlif sahələri təmsil edən elm adamlarından ibarət heyəti öz ofisində qonaq edib.



"Köklü keçmiş, güclü gələcək" simpoziumunun iştirakçıları "Cultural Network House" tərəfindən təşkil olunan mədəniyyət mübadiləsi gecəsində iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Assosiasiyanın sədri Aynur Süleymanzadə qonaqlara fəaliyyətləri və həyata keçirdikləri layihələr haqqında məlumat verib.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli öz təqdimatında otuzillik işğal dövründə Azərbaycanın mədəni abidələrinə vurulan zərər və azad edilmiş torpaqlarda abidələrin bərpası, qorunması və bu mədəni irsin dünyaya tanıdılması istiqamətində aparılan işlər barədə qonaqları məlumatlandırıb.

Tədbirdə Qarabağın mədəni abidələrinin işğaldan sonrakı vəziyyəti və bərpasını özündə əks etdirən "Şuşa" kitabının təqdimatı da keçirilib.

Qonaqlar "Cultural Network House" Assosiasiyasının fəaliyyətini yüksək qiymətləndirərək, elm və mədəniyyət sahələrində işbirliyinə dair müzakirələr aparıblar.

# Şuşada keçirilən beynəlxalq konfransın iştirakçıları Qobustanda və Füzulidə olublar



Xəbər verdiyimiz kimi, 19-20 sentyabr tarixlərində Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransın birinci iş günü mədəniyyət paytaxtımız Şuşada gerçəkləşib, tədbir ertəsi gün işini Bakıda davam etdirib.

Beynəlxalq elmi-praktik konfransın iştirakçıları sentyabrın 18-də Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət edib, sonra Bakıdan Şuşaya gedərkən Füzuli rayonu ərazisində otuz ilə yaxın davam etmiş erməni işğalının fəsadları ilə tanış olublar.

Qobustan Milli Tarix-Bədii Qoruğuna gələn qonaqlara buradakı qayaüstü rəsmlər və yazılar barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, açıq səma altında qoruq-muzey kimi dünyada tanınan bu məkanda Son Daş dövründən Orta əsrlərə qədər həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələri var. Qeyd edilib ki, Qobustan qayaüstü rəsmləri dünyada belə abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 7 minə yaxın qayaüstü təsvir, 40-a yaxın kurqan, 20 mağara və s. aşkar edilib və öyrənilib.

Qonaqlara məşhur qavaldaş barədə məlumat verilib. Bildirilib ki, oxun icad olunması qəbilə adamlarının maddi güzəranı üçün nə qədər lazım idisə, qavaldaş da ibtidai insanların rəqs və mahnı mərasimləri təşkil etmək üçün olduqca əhəmiyyətli idi.

Konfrans iştirakçıları üzərində latın qrafikası ilə qədim Roma yazısı olan daş kitabə ilə də maraqla tanış olublar. Bildirilib ki, 1948-ci ildə aşkar olunmuş kitabə eramızın 84-96-cı illərində imperator Domisianın dövründə Roma legionunun senturiyasının Qobustan ərazisində olduğunu göstərir. Daş kitabədə "İmperator Domisian Sezar Avqust Germanik. Lutsius Yulius Maksimus. XII İldırımsürətli Legion" sözləri qeyd edilib.

Konfrans iştirakçıları qoruğun ərazisində yaradılmış muzeydə də olublar. Onlara müxtəlif dövrlərə aid artefaktlar barədə məlumat verilib.

***

Beynəlxalq elmi-praktik konfransın iştirakçıları Şuşaya gedərkən yolüstü Füzuli rayonu ərazisində dayanıblar. Prezidentin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdəki Xüsusi Nümayəndəliyinin əməkdaşı Araz İmanov məlumat verib ki, ermənilər işğal dövründə Füzulidə yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni, dini abidələri vəhşicəsinə dağıdıblar. İşğalçılar Füzuli şəhərində bir dənə də olsun salamat bina qoymayıb, hər şeyi talan ediblər.

Diqqətə çatdırılıb ki, Qarabağda erməni vandalizminə məruz qalan yaşayış məntəqələrindən biri də Füzuli rayonunun Merdinli kəndidir. Burada bütün evlər dağıdılıb, ermənilər tərəfindən kənd ərazisindəki məsciddə heyvan saxlanılıb. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb – məzarlar dağıdılıb, cəsədlər qazılaraq çıxarılıb.



Sonra konfrans iştirakçıları Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar. Məlumat verilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı 2021-ci ildə – cəmi 9 ay ərzində ən müasir səviyyədə inşa olunub və istənilən tip hava gəmisini qəbul etmək imkanları var.

Qonaqlar Füzuli şəhərinin 27 illik işğaldan qalan xarabalıqları ilə tanış olublar. Eyni zamanda Füzulidə görülən bərpa və yenidənqurma işlərindən bəhs edilib.

***

Konfrans iştirakçıları sonra Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya yola düşüblər. Yolboyu qonaqlara Azərbaycanın mədəniyyəti, eləcə də mədəniyyət iqtisadiyyatının inkişaf perspektivləri barədə məlumat verilib. Şuşaya gələn qonaqlar şəhərin görməli yerləri ilə tanış olublar.



Tanışlıq Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal zamanı güllələnmiş heykəllərinin yerləşdiyi şəhər meydanından başlayıb. Bu abidələr barədə məlumat verilib. Qonaqlar güllələnmiş heykəllərin qarşısına güllər düzüblər.

Qonaqlara həmçinin Qarabağın xanı – Şuşa şəhərinin qurucusu Pənahəli xanın sarayı, Natəvanın evi, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və Saatlı məscidləri, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi barədə məlumat verilib.

Qonaqlar Şuşa qalasının divarları önündə xatirə şəkli çəkdiriblər, şəhərin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sonda konfrans iştirakçıları Cıdır düzündə olub, oradan açılan gözəl mənzərəni seyr ediblər. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz misilsiz şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü, işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

## General Həzi Aslanov haqqında kitabın təqdimatı

Lənkəran RMİ Həzi Aslanovun Ev-Muzeyində Həcər Nəsirovanın "Həzi Aslanovun qəhrəmanlıqla dolu həyat yolu" kitabının təqdimatı keçirilib.




Mərasimdə çıxış edən Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov kitabın gənc nəslin vətənpərvər ruhda böyüməsi, qəhrəmanlarımızın yaxından tanınması üçün dəyərli mənbə olduğunu deyib. Qeyd edib ki, qəhrəmanlıq tarixi yazan igidlərimiz hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq və onlar haqqında neçə-neçə kitablar, məqalələr ərsəyə gətiriləcək. İdarənin rəisi müəllifə təşəkkürünü bildirib, yeni uğurlar arzulayıb.

Digər çıxış edənlər kitabın əhəmiyyətini yüksək qiymətləndirərək Həzi Aslanovun döyüş yolundan söz açıblar.

Tədbir bədii proqramla davam edib.

## Bədii təhsil ocaqlarının tələbə adını qazanmış məzunları ilə görüş

Bərdə RMİ-nin təşəbbüsü ilə Bərdə rayon Mədəniyyət Mərkəzində regional idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin məzunları ilə görüş keçirilib.



Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova tələbə adını qazanmış məzunları, onların müəllimlərini və valideynlərini təbrik edib, uğurlar arzulayıb. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanda müasir təhsil sistemi yaradılıb və hazırda bu sahə yeni inkişaf mərhələsini yaşayır.

Görüşdə çıxış edən məzunlar onlara bəslənən ümidləri doğruldacaqlarına söz veriblər.

Sonda məzunlara regional idarə tərəfindən fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

## "Əsrin bəlası"na birgə yox deyək!

Kürdəmir RMİ Beyləqan rayon Mədəniyyət Mərkəzi və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya əsrin bəlasıdır" adlı tədbir keçirilib. Çıxış edənlər bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniya, psixotrop maddələrin və digər zərərli vərdişlərin fəsadlarından, gənc nəslin sağlamlığı üçün yaratdığı təhlükələrdən danışıb, narkomaniyaya qarşı ümummilli mübarizə aparmağın vacibliyini vurğulayıblar.

***

Masallı RMİ Cəlilabad Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə narkomaniyanın zərərlərindən, ölkəmizdə narkomaniyaya qarşı aparılan mübarizədən bəhs olunub.

***

Ağstafa RMİ Tovuz rayon Mərkəzi Kitabxanasında "Narkomaniya: çətin və erkən ölüm" mövzusunda tədbir təşkil edilib. Tədbirdə iştirak edən gənc fəal oxucular narkomaniya və onun insan həyatına zərərləri ilə bağlı öz fikirlərini səsləndiriblər.

## Vətənin qəhrəmanları unudulmur




Yevlax rayonunun Xaldan kəndində şəhidlərin xatirəsinə abidə ucaldılıb. Abidənin açılış mərasimində Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclis sədrinin I müavini Əli Hüseynli, millət vəkili İlham Məmmədov, YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev, şəhidlərin ailə üzvləri, yaxınları, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Sumqayıt RMİ-nin tabeliyində fəaliyyət göstərən Niyazi adına Şuşa şəhər Uşaq incəsənət məktəbinin kollektivi Vətən müharibəsi şəhidləri mayor Səyavuş Kəlbalıyev və leytenant Nurlan Həsənovun ailəsi ilə görüşüb.

***

Ağstafa RMİ Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyinin bir qrup əməkdaşı Vətən müharibəsi şəhidi Elnur Həsənovun doğum günü münasibətilə ailəsini və adına tikilən bulağı ziyarət edib.

***



Biləsuvar RMİ-nin əhatə etdiyi Cəbrayıl rayon Karxulu, Qaracallı kənd klubları və 23 nömrəli Minbaşılı kənd kitabxanasının işçiləri Vətən müharibəsi şəhidi Nicat Əlizadənin doğum günü ilə əlaqədar ailəsinə baş çəkiblər.

***

Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Masallı rayon komitəsinin sədri Vəkil İsmayılov və regional idarəyə tabe müəssisələrin rəhbərləri tərəfindən Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət olunub. Ziyarətlər zamanı valideynlər şəhid övladlarının həyat hekayələri və hərb meydanındakı şücaətlərindən bəhs ediblər. Qonaqlar isə şəhidlərin Vətən qarşısındakı misilsiz xidmətlərini iftixar hissi ilə qeyd edərək onların qəlblərdə əbədi yaşayacaqlarını vurğulayıblar.



Nümayəndələr rayonun bir neçə kəndində Vətən müharibəsi qazilərinə də baş çəkiblər. Mədəniyyət işçiləri qazilərlə görüşlərdə onların səhhəti və ehtiyacları ilə maraqlanıblar. Qazilər isə cəbhə xatirələrini qonaqlarla bölüşüblər.

**Hazırladı: N.Məmmədli**

## Regionlardakı mədəniyyət müəssisələri Ordumuza dəstək aksiyasına qoşulublar

Mədəniyyət Nazirliyinin təşəbbüsü əsasında nazirliyin tabeliyində fəaliyyət göstərən müəssisələrdə 18 sentyabr – Milli Musiqi Günündə Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiyaya yerlərdəki mədəniyyət müəssisələri də fəal şəkildə qoşulublar. Mədəniyyət ocaqlarında kollektivlərin iştirakı ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Təşəbbüsün əsas məqsədi ölkəmizin ən ali və əzəmətli musiqisinin – Üzeyir Hacıbəylinin bəstəsi olan Azərbaycan Dövlət Himninin sədaları ilə Vətənimizin keşiyində duran Silahlı Qüvvələrimizə, qəhrəman əsgər və zabitlərimizə dəstək nümayiş etdirməkdir.

***



Ağstafa RMİ-nin tabeliyindəki müəssisələrin kollektiv üzvlərinin, müəllim, tələbə və şagirdlərin iştirakı ilə şanlı üçrəngli bayrağımız dalğalandırılmaqla Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

***




İsmayıllı Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən İsmayıllı rayon Fazil Əzimov adına Uşaq incəsənət məktəbi, Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi, Qobustan şəhər Rəşid Behbudov adına Uşaq incəsənət məktəbi və Ağsu rayon Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivlərinin ifasında Dövlət himnimiz səsləndirilib.

***

Sabirabad RMİ-nin tabeliyində fəaliyyət göstərən uşaq musiqi məktəblərində şagird və müəllimlərin ifasında Dövlət himnimiz səsləndirilərək müzəffər Ordumuza dəstək nümayiş etdirilib.

***

Şəki RMİ-nin tabeliyində fəaliyyət göstərən uşaq incəsənət və musiqi məktəblərində şagird və müəllimlər himnimizi ifa edərək müzəffər Ordumuza dəstək olublar.

***

Şəmkir RMİ-nin əhatə etdiyi kitabxana, muzey, mərkəz və musiqi məktəbləri işçilərinin iştirakı ilə Şəmkir rayon Heydər Əliyev Mərkəzində Dövlət himnimiz ifa edilib.

***

Ordumuza dəstək məqsədilə Ağdaş RMİ-nin şəbəkəsinə aid olan Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində də şagird və müəllimlərin ifasında Dövlət himnimiz səsləndirilib.

***

Gəncə RMİ-nin tabeliyində olan mədəniyyət müəssisələrində, eləcə də F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında da sözügedən aksiya reallaşıb. Əvvəlcə Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Daha sonra Gəncə Dövlət Filarmoniyası Kamera Orkestrinin müşayiəti, şəhid valideynləri və övladlarının, qazilərin, Gəncə şəhərində erməni terrorundan zərər çəkmiş ailələrin iştirakı ilə Dövlət himnimiz səsləndirilib.

Tədbir Gəncə RMİ-nin sosial şəbəkə hesablarında canlı olaraq yayımlanıb.

Digər regional mədəniyyət idarələrinin də əhatə etdiyi müəssisələrdə sözügedən aksiya həyata keçirilib.

# Yaradılan belə bir şəraitdə fəaliyyət də mükəmməl olmalıdır

## Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq musiqi məktəbinin əsaslı təmirdən sonra açılışı keçirilib

18 sentyabr – Milli Musiqi Günündə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq musiqi məktəbinin (Yasamal rayonu) binasının əsaslı təmirdən sonra açılışı olub.



Mərasimdə mədəniyyət naziri Anar Kərimov, nazirliyin əməkdaşları, məktəbin kollektivi iştirak edib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev musiqi məktəbində yaradılan şəraitlə bağlı nazir Anar Kərimova məlumat verib. Bildirilib ki, ümumi sahəsi 789 kv m olan bina texniki cəhətdən yenidən qurulub, zəruri inventar və avadanlıqlarla təmin edilib. Təmirdən sonra məktəbin binasında 24 sinif otağı, akt zalı, 2 inzibati otaq və mətbəx otağı yaradılıb.

Sonra həmkarlarını təbrik etməyə gəlmiş Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Cövdət Hacıyev adına 3 nömrəli Musiqi məktəbi xor kollektivinin ifasında Dövlət himni səsləndirilib.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək Milli Musiqi Günü münasibətilə hər kəsi təbrik edib, açılış mərasiminin məhz belə bir gündə keçirilməsinin xüsusilə əlamətdar olduğunu vurğulayıb. Bildirib ki, hər il olduğu kimi, bu il də Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı ilə bağlı geniş proqram tərtib etmişdik. Təəssüflər olsun ki, son günlərdə düşmən təxribatı nəticəsində sərhəddə baş verən hadisələr, şəhidlərimizin olması festivala kədərli notlar əlavə etdi: “Amma şəhidlərimizin qanı yerdə qalmadı, ordu bölmələrimiz düşmənə sarsıdıcı zərbə vurdu. Kədərli günlərdə də bizim musiqimiz səslənməlidir. Hamıya bəyan etməliyik ki, biz Qarabağımıza, Üzeyir Hacıbəylinin vətəni Şuşaya mədəniyyətimizi və musiqimizi qaytarırıq...”.





Anar Kərimov qeyd edib ki, xalqın gücü, qüdrəti həm də onun mədəniyyətindən asılıdır. Biz bunu 44 günlük Vətən müharibəsində bir daha sübut etdik. Ümumiyyətlə, tariximizə nəzər yetirsək görərik ki, bizi biz və möhkəm edən mədəniyyətimizə, milli köklərimizə və mənəvi dəyərlərimizə bağlılıqdır.

Məktəbin kollektivinə əsaslı təmir olunmuş binada uğurlu fəaliyyət arzulayan nazir bildirib ki, vaxtilə Üzeyir Hacıbəylinin bu məktəbdə fəaliyyət göstərməsi tədris ocağı və onun kollektivinin üzərinə əlavə məsuliyyət qoyur. Qeyd olunub ki, bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mədəniyyətimizin, o cümlədən milli musiqimizin inkişafı üçün çox böyük səy göstərirlər. Bədii tədris müəssisələrində təmirdən sonra yaradılan belə bir şəraitdə fəaliyyət də mükəmməl olmalıdır: “Məktəbin kollektivi öz səylərini ortaya qoyaraq milli musiqimizi yeni nəsillərə ötürməlidir. Biz də Mədəniyyət Nazirliyi olaraq bu işlərdə sizlərə əlimizdən gələn köməkliyi edəcəyik”.

Qeyd edək ki, 6 nömrəli Uşaq musiqi məktəbi 1937-ci ildə fəaliyyətə başlayıb. 1992-ci ildə məktəbə Xalq artisti, görkəmli tarzən Əhməd Bakıxanovun adı verilib. Məktəbdə 4 şöbə üzrə 13 ixtisas (fortepiano, violin, klarnet, fleyta, saksofon, tar, kamança, qanun, qarmon, nağara, vokal, xanəndəlik, gitara) tədris olunur, 278 şagird təhsil alır, 52 nəfər müəllim çalışır. Həmçinin şagirdlərdən ibarət xalq çalğı alətləri ansamblı, xor kollektivi və skripkaçılar ansamblı fəaliyyət göstərir.

**Nurəddin**

# “Geyimin cazibəsi”

## Milli Xalça Muzeyində Belqrad Etnoqrafiya Muzeyinin sərgisi

Azərbaycan Milli Xalça Muzeyində “Geyimin cazibəsi: Belqrad Etnoqrafiya Muzeyinin sərgisi” adlı ekspozisiya təşkil edilib. Azərbaycanla Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə həsr edilmiş sərgidə Belqrad Etnoqrafiya Muzeyinin kolleksiyasından 64 eksponat nümayiş olunur.






Serb xalqının mədəni irsini, onların keçmiş həyat tərzini özündə ehtiva edən nümunələr Balkan yarımadası və Orta Dunay düzənliyi ərazisində istifadə olunan, XIX-XX əsrlərə aid qadın və kişi geyimləridir. Əsasən gödəkcə və jiletlərdən ibarət olan eksponatların zəngin bədii tərtibatı, nəbati motivli rəngarəng naxışları Orta Dunay ərazisində kənd təsərrüfatının inkişafını, torpaqlarının zənginliyini, məhsuldarlığını simvolizə edir. Bunlar naxış elementlərinin, rənglərinin, biçiminin, formasının harmoniyasına görə yüksək zövqlə hazırlanmış, şəhər və kəndlərə məxsus gündəlik, həmçinin bayram geyimləri kimi xarakterizə olunan nümunələrdir.

Azərbaycan Mədəniyyət Nazirliyi, Serbiya Mədəniyyət və Media Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi və Belqrad Etnoqrafiya Muzeyinin təşkilatçılığı, Serbiyanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə keçirilən sərgi oktyabrın 16-dək davam edəcək.

Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün serb xalqına aid ənənəvi tikmə naxışlarının tətbiqi ilə “özün rənglə”, fetr üzərində qaytanla sancma və sanama tikmələri üzrə ustad dərsləri keçiriləcək.

Qeyd edək ki, Azərbaycan Milli Xalça Muzeyi və Belqrad Etnoqrafiya Muzeyi arasında 2016-cı ildən başlanan qarşılıqlı əməkdaşlıq əlaqələri çərçivəsində bir neçə layihə reallaşdırılıb, sərgilər keçirilib.

# Xalq artisti Azər Paşa Nemətova “Şərəf” ordeni təqdim edilib



Mədəniyyət naziri Anar Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təltif edilən Xalq artisti Azər Paşa Nemətova “Şərəf” ordenini təqdim edib.

Görüşdə Azərbaycan teatrının gələcək inkişafı, beynəlxalq əlaqələrinin genişlənməsi, yaradıcı şəxslərin dövlətimiz tərəfindən diqqətdə saxlanılması barədə fikir mübadiləsi aparılıb.

Nazir görkəmli rejissora gələcək işlərində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Azər Paşa Nemətov yaradıcılığının yüksək qiymətləndirilməsinə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Qeyd edək ki, Azər Paşa Nemətov avqustun 12-də Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şərəf” ordeni ilə təltif edilib.

# Mədəniyyət ocaqlarında Ordumuza dəstək



Mədəniyyət Nazirliyinin təşəbbüsü əsasında nazirliyin tabeliyində fəaliyyət göstərən müəssisələrdə 18 sentyabr – Milli Musiqi Günündə Azərbaycan Ordusuna dəstək aksiyaları keçirilib.

Həmin gün müəssisələrdə kollektivlərin iştirakı ilə bayrağımız dalğalandırılmaqla Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Təşəbbüsün əsas məqsədi ölkəmizin ən ali və əzəmətli musiqisinin – Üzeyir Hacıbəylinin bəstəsi olan Dövlət Himninin sədaları ilə Vətənimizin keşiyində duran Silahlı Qüvvələrimizə, qəhrəman əsgər və zabitlərimizə dəstək nümayiş etdirməkdir.

Paytaxt Bakıda, eləcə də respublikanın şəhər və rayonlarında mədəniyyət müəssisələri və təşkilatlar sözügedən aksiyaya fəal şəkildə qoşulub, eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı naminə canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

# “Açar” İsveçdə kinofestivalda yarışacaq

“OB Film” və “Epic Production” şirkətlərinin birgə istehsalı olan “Açar” qısametrajlı bədii filmi İsveçdə festivalda iştirak edəcək.

Ekran əsəri bu ilin 8-9 oktyabr tarixlərində Stokholm şəhərində keçiriləcək 13-cü SAMA Beynəlxalq Film Festivalının beynəlxalq proqramında nümayiş olunacaq. Premyerası bu ilin aprelində Niderlandda “Go Short” Beynəlxalq Film Festivalında gerçəkləşən, bir neçə beynəlxalq festivalda ölkəmizi təmsil edən ekran işi işğal edilmiş evinin sonuncu yadigarı və nişanəsi olan açarları 26 il qoruyub saxlayan Ümid kişinin hekayəsindən bəhs edir.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru Elşad Əliyev, təsvir rejissoru Cavid Oruclu (Delee), quruluşçu rəssamı Arif Niftiyev, montaj rejissoru Elşad Rəhimov, səs rejissoru Mehman Nadirov, prodüserləri Orxan Behbid, Senur Əhədov və Mətin Ələkbərlidir.

Filmdə Xalq artisti Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Zemfira Əbdülsəmədova, aktyorlar Reyhan Cəfər, Hüseyn İsgəndərov, Yusif Şeyxov, Arif Kərimov, Rövşən Ağayev, Eldar Cəbrayıl, Selin Cəbrayıl və başqaları çəkiliblər.

**Lalə**



# Köhnə filmlərdə gördüyümüz kimi...

## Paytaxtda tarixi binaların blokları keçmiş görkəmi əsasında bərpa olunur

Bir neçə gün əvvəl Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə yolum düşmüşdü. Səid Rüstəmov küçəsində tarixi binada yerləşən mərkəzin binasının giriş qapısında və blokda restavrasiya işlərinin aparıldığı diqqətimi çəkdi.

Ustalara yaxınlaşıb maraqlanmaq istəyirdim ki, memar, sənətşünaslıq üzrə elmlər doktoru, professor Elçin Əliyevin binaya daxil olduğunu gördüm. Elçin Əliyevi görər-görməz məsələni təxmin etmiş oldum. Salamlaşan kimi memar niyyətimi anlayıb özü həvəslə görülən işlər haqqında məlumat verdi. Məlum oldu ki, artıq bir neçə müddətdir başlanan təmir-bərpa işləri şəhərin müxtəlif istiqamətlərində həyata keçirilir.

Səhəri gün təmir işləri gedən ərazilərə birgə baxış keçirdik.

Rəsul Rza küçəsindəki hazır olan bina girişlərinə baxış zamanı gözoxşayan mənzərələr ürəyimizi açdı. Uzun zamandır köhnə filmlərimizdə, kadrlarda yaşayan tarixi binaların bloklarındakı naxışlar, həmin dövrün üslubunu qoruyan bəzəkləri görəndə köks ötürürdük... Bu gün həmin tarix yerinə qayıdır, bərqərar olur. Blokların uçuq-sökük, elektrik naqillərinin dolaşıq halından əsər-əlamət qalmayıb.

Elçin Əliyev deyir ki, görülən bərpa işləri ölkə rəhbərliyinin və birbaşa Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişi əsasında həyata keçirilir. “Bakı Abadlıq Xidməti” MMC tərəfindən aparılan işlərə memar özü rəhbərlik edir: “1890-cı ildə tikilən binaya bu günə kimi neçə dəfə elektrik naqili çəkilibsə, o qədər də köhnə naqillər sökülmədən blokda dolaşıq şəkildə qalmışdı: “Azərişıq” və “Azəriqaz”, rabitə idarələri bloklarda xətləri yenilədikdən sonra Bakı Abadlıq Xidməti burada təmirə başlayır. İşlər əsaslı şəkildə aparılır. İlk əvvəl sakinlərin bütün problemləri dinlənilir, nəzərə alınır, daha sonra restavrasiyaya başlayırıq. Birinci mərtəbədən sonuncu mərtəbəyə qədər pilləkənlər yenilənir. İlk baxışda pilləkənlər yeni görünsə də, biz bərpa üsulu ilə köhnə pilləkənlərə əvvəlki görkəmini qaytarıb yeniləyə bilmişik. Bloklarda quraşdırılan su nasosları da yığışdırılıb və tam səliqəli görkəm yaranıb. Su nasoslarının əvəzinə isə yüksəktəzyiqli su xətləri çəkilir. Yəni estetik görünüşə xüsusi diqqət edirik”.

Memar deyir ki, bərpa işləri aparılan binalar memarlıq abidələri olduğu üçün necə gəldi müdaxilə etmək olmaz: “Girişdəki çilçıraqları yerinə qaytarmaqla bu bloklara işıqla bərabər öz keçmişini də qaytarmağa nail olmuşuq. Rəssamlarla danışıqlara başlamışıq. Onlar bloklardakı qədim rəsmləri bərpa edəcəklər”.



Rəsul Rza küçəsində bir neçə binanın blokuna baxış zamanı mütəxəssis bildirdi ki, işlər bir ildir həyata keçirilir. 5-6 blokda işlər tamamlanıb, 15-16 blokda işlər davam edir: “Əsas odur ki, işləri tələsmədən görürük. Ustalar dəvət olunur və nəzarət altında işləri həyata keçirirlər. Bu binalar bir əsrdən çoxdur xalqımıza qulluq ediblər və elə restavrasiya olunmalıdır ki, 100 il bundan sonra təmirə ehtiyacları qalmasın. Bakı Abadlıq Xidməti tərəfindən bloklarda xüsusi elanlar yerləşdirilib. Bu elanlarda sakinlərdən restavrasiya olunmuş bloka müdaxilə ilə bağlı məlumat vermələri xahiş olunur”.

Bərpa işlərinin yüksək keyfiyyətlə aparıldığını deyən memar verilən dəstəyə və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirdi: “Dövlətimiz qədim binaların təmiri ilə bağlı bütün ləvazımatların alınmasına yardımçı olur. Qapıların hamısı yenilənib. Palıd ağacından olan bu qapılar çox uzunömürlüdür. Nizami küçəsindən başlayan bu təmir işləri Yusif Məmmədəliyev, Rəsul Rza və digər küçələrdə davam etdirilir. Böyük və əhatəli layihə çərçivəsində 5-6 il müddətində şəhərdəki memarlıq abidəsi olan bütün binaların bloklarında təmir işlərinin aparılması nəzərdə tutulub.

Binaların girişindəki mərmər döşəmələr də yenilənib. Bu mərmərlər Bakının tarixi fotolarına əsasən sifariş edilib və döşənib. Sovet dövründə çox zaman XIX əsrə aid binalardakı naxış və bəzəklər ləğv edilir, yaxud da sökülürdü. Sənətşünas deyir elə blok var ki, orada keçmişdən heç bir nümunə qalmamışdı: “Biz işə başlamazdan əvvəl arxivlərdə iş aparırıq. Hər bir binanın interyerini tapırıq. İzsiz blokları da bu nümunələr əsasında bərpa edirik. Hər blokda iş bir-iki ay davam edir. Bəzi bloklarda pilləkənaltı sahələr zəbt edildiyi üçün dövlət buna görə sakinlərə kompensasiya verib. Onlar blokları boşaldaraq başqa yerdə məskunlaşıblar. Ən böyük problem azad və bərpa edilmiş bu blokları nəzarətdə saxlamaqdır. Çünki belə gözəlliyə göz dikməyən adam az olar”.

Elçin müəllimi həm ustalar, həm də müxtəlif binaların sakinləri gözlədiyi üçün onunla sağollaşırıq. Belə bir gözəlliklər yaratdıqları üçün memara və ustalara “işiniz avand olsun” deyərək, ağ günə çıxmış blokların öz “donlarında” necə möhtəşəm göründüyünü bir daha seyr edib məmnun oluruq...

**L.Azəri**

№69 (1942)
21 sentyabr 2022
www.medeniyyet.az

# Görkəmli şərqşünas-alim Aida İmanquliyeva vəfatının 30-cu ildönümündə yad edilib

Sentyabrın 19-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi görkəmli şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın (1939–1992) məzarını ziyarət edib. Məzarın önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin ehtiramla anılıb.




AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva qeyd edib ki, 30 il öncə sentyabrın 19-da dünyasını dəyişmiş Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elminin inkişafında silinməz iz qoyub. Əsas elmi fəaliyyətini ərəb ədəbiyyatının tədqiqinə həsr edən alim üç monoqrafiya, 100-dən çox elmi və elmi populyar məqalənin müəllifidir. O, ərəb-Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqələrini və təsirini öyrənən ilk alimimiz olub.

Vurğulanıb ki, Aida İmanquliyevanın tədqiqatları nəticəsində yeni ərəb ədəbiyyatının Qərb ədəbiyyatına, o cümlədən ingilis romantiklərinin, rus tənqidi realizmi nümayəndələrinin yaradıcılığına çox güclü təsir etdiyi müəyyən olunub.

Aida İmanquliyevanın Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı elm təşkilatçısı kimi özünü göstərdiyini xatırladan G.Baxşəliyeva əlavə edib ki, o, Azərbaycan elmini dünya səviyyəsində təmsil edən gözəl alim idi.

Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə Aida İmanquliyevanın elmi fəaliyyətindən bəhs edib, onun gənc şərqşünaslara göstərdiyi qayğıdan danışıb.

# Şuşada abidələrin mühafizəsinə dair normativ sənəd təsdiq olunub

Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqaviləsinin forması təsdiq edilib.

Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərar "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasının təmin olunması məqsədilə qəbul edilib.

Qərarla təsdiq edilmiş müqavilə forması ilə Şuşa şəhərinin ərazisində mülkiyyətində, istifadəsində və icarəsində abidələrin olduğu fiziki və hüquqi şəxslərlə abidələrin qorunması məqsədilə bağlanılan mühafizə müqaviləsinin şərtləri və müqavilənin şərtlərinə əməl olunmadığı təqdirdə görüləcək tədbirlər müəyyən edilib.

# Sankt-Peterburqda Üzeyir Hacıbəylinin xatirəsi anılıb

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin xatirəsi Rusiyanın Sankt-Peterburq şəhərində anılıb.



18 sentyabr – Milli Musiqi Günü münasibətilə Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov və diplomatlar Üzeyir Hacıbəylinin adını daşıyan bağda olublar.

Xatırladaq ki, Sankt-Peterburqun Bəstəkarlar küçəsində yerləşən bu bağda Heydər Əliyev Fondunun və Sankt-Peterburq hökumətinin dəstəyi ilə Üzeyir Hacıbəylinin abidəsi ucaldılacaq. Bu ilin yanvar ayında abidənin təməl daşı qoyulub.

Baş konsul Sultan Qasımov və konsulluğun əməkdaşları dahi bəstəkar Üzeyir Hacıbəylinin xatirəsini yad edib, təməl daşının önünə çiçəklər qoyublar.

# Bədii tərtibat sahəsində məktəb yaradan sənətkar

Respublikamızda əsası XX əsrin əvvəllərində qoyulan karikatura sənəti zəngin inkişaf yolu keçib. Karikatura və kitab qrafikası üzrə istedadlı sənətkarlar yetişib. Həmin dövrdə maraqlı əsərləri ilə diqqətçəkən sənətkarlardan biri də Xalq rəssamı, Dövlət mükafatı laureatı İsmayıl Axundov olub.

Görkəmli sənətkar yorulmaz yaradıcılıq fəaliyyəti dövründə obrazlar qalereyası, karikatura və portretlər silsiləsi yaradıb. Sənətkarı anadan olmasının 115 illiyi münasibətilə xatırladıq.

İsmayıl Hüseyn oğlu Axundov 15 aprel 1907-ci ildə Bakının Maştağa kəndində dünyaya göz açıb. Atası mömin olsa da, açıqfikirli, geniş dünyagörüşlü, elmə və mədəniyyətə qiymət verən insan olub, övladlarının parlaq gələcəyi üçün böyük səy göstərib...

İsmayıl orta məktəbi bitirdikdən sonra Pedaqoji Texnikumda və Rəssamlıq Məktəbində təhsil alır. 1928-ci ildə Moskva Poliqrafiya İnstitutunun Nəşriyyat fakültəsinə qəbul olunur. Təhsilini 1932-ci ildə uğurla başa vurub Bakıya qayıdır. "Azərnəşr"də işə başlayan İsmayıl Axundov işgüzarlığı ilə seçilir və qrafika bölməsinə rəhbər təyin edilir.

İsmayıl Axundov bir müddət "Molla Nəsrəddin" jurnalının da fəal əməkdaşlarından olub. Rəssamın qeydlərindən bəlli olur ki, onun sənətdə daha şövqlə irəliləməsində görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin tövsiyələri rol oynayıb. Rəssam böyük ədiblə görüşü haqda yazır: "20 yaşımda adını eşidib, üzünü görmədiyim nurani-pirani sifətli, ağır yerişli Mirzə Cəlillə mənzilinin yaxınlığında rastlaşdıq. Özümdən asılı olmayaraq ona yaxınlaşdım və ehtiramla salam verdim. Adımı, soyadımı soruşdu. Kim olduğumu dedim. Sən demə, böyük sənətkar mənim əsərlərimlə tanış imiş.



"Oğul, "Qız qalası üstündə göyərçinlər" əl işinə baxmışam. Sənin gələcəyinə inanıram. Mübariz, sözübütöv ol. Yadında saxla, əsl sənət riyakarlığı sevmir", – dedi. Bu sözlər mənim sənət yoluma işıq saldı".



1937-1940-cı illərdə Rəssamlıq Məktəbinə direktor təyin olunan İsmayıl Axundov yüksək insani keyfiyyətləri, həmkarlarına qarşı diqqətcil və qayğıkeş münasibəti ilə kollektivin rəğbətini qazanıb. Görkəmli fırça ustalarından Tağı Tağıyev, Salam Salamzadə, Vidadi Nərimanbəyov, Səttar Bəhlulzadə, Baba Əliyev, Kazım Kazımzadə yeri düşdükcə bu qayğıkeş insanın fəaliyyətindən söz açıb, onu ehtiramla yad ediblər.



Sənətkar 1940-cı ildən Nizami adına Ədəbiyyat Muzeyinin direktoru və baş rəssamı işləyib. İlk gündən müxtəlif yaradıcılıq nümunələrinin, eksponatların toplanmasına, muzeyin tərtibatına qayğı göstərib. Daha sonra Xalq artisti Adil İsgəndərovun dəvəti ilə Dövlət Akademik Dram Teatrında çalışıb. Xalq yazıçısı Mirzə İbrahimovun "Həyat" pyesinin tamaşasının geyim eskizlərini çəkib, Cəfər Cabbarlının "Yaşar", Mirzə Fətəlinin "Hacı Qara", Səməd Vurğunun "Vaqif" və başqa səhnə əsərlərinə bədii tərtibat verib.

Akademik Həmid Araslı görkəmli sənətkarın 60 illik yubileyi ilə bağlı "Ədəbiyyat və incəsənət" qəzetində "Gözəl tərtibatçı" adlı məqaləsində yazır: "İsmayıl Axudov sərgilərin bədii tərtibatında məktəb yaratmış bir rəssamdır. Bu rəssamın, yazıçıların üslub xüsusiyyətlərini bir ədəbiyyatşünas kimi gözəl bilməsi, bədii axtarışların, müasirlik duyğusunun və ümumi biliyinin qüdrəti ilə yaranmışdır. İ.Axundov həmişə axtaran, öyrənən, narahat bir sənətkardır".

Sözsüz ki, İsmayıl Axundov haqqında tanınmış sənət və elm adamlarının dəyərli fikirləri onun məhsuldar fəaliyyəti haqqında dolğun təəssürat yaradır.

Təsviri sənətdə qazandığı nailiyyətlərə görə əməyi yüksək qiymətləndirilən sənətkar 1940-cı ildə "Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülüb. 1950-ci ildə isə Dövlət mükafatı (Stalin mühafatı) alıb.

1952-ci ildə rəssamın həyatında yeni bir səhifə açılır. "Molla Nəsrəddin" jurnalının satira ənənələrini davam etdirən "Kirpi" dərgisi nəşrə başlayır. Jurnalın ilk redaktoru yazıçı Əvəz Sadıq xatirələr kitabında yazır: "İsmayılı çoxdan tanıyırdım. Yaradıcılığına yaxından bələd idim. Əsərləri görənləri həm güldürür, həm də düşündürürdü. Bir tipin portretinin məntiqində geniş fikir söyləmək çətindir. Ancaq dostumuz İsmayıl bu işin öhdəsindən bacarıqla gəlir. Onun "Aya boylanan", "Ayı oynayanda", "Şeir yazan pişik" və s. karikaturalarını oxucular maraqla qarşılamışdılar. "Kirpi"nin tanınmasında və populyar olmasında İsmayıl Axundovun xidmətləri danılmazdır".

Görkəmli sənətkar 1960-cı ildən yenidən Akademik Dram Teatrında yaradıcılıq fəaliyyətini davam etdirir. Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi sənətkarlarla birgə çalışır. Teatrda dekorasiya sahəsinə müəyyən yeniliklər gətirir.

Respublikanın ictimai-mədəni həyatında aktiv olan rəssam eyni zamanda Moskvada keçirilən ilk kənd təsərrüfatı sərgisinin tərtibatında iştirak edib. İctimai xadim kimi də yorulmaz fəaliyyət göstərən İ.Axundov Azərbaycan Rəssamlar İttifaqının sədri olub, Bakı Şəhər Sovetinin və respublika Ali Sovetinin deputatı seçilib.

Böyük həyat coşqunluğu ilə yaşayıb-yaradan fırça ustası 13 sentyabr 1969-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

# İranda ustad Şəhriyarın anım günü

Sentyabrın 18-də İranda böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın vəfatının 34-cü ildönümü qeyd olunub.

Bu münasibətlə Təbrizdə Şəhriyarın qəbrinin yerləşdiyi Məqbərətüş-şüəra (Şairlər məqbərəsi) güllərlə bəzədilib. Mərasimdə İranın Şərqi Azərbaycan vilayətinin rəsmi şəxsləri, şairlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları Şəhriyarın yaradıcılığı, həyat və fəaliyyətindən geniş söz açıblar.

Məhəmmədhüseyn Şəhriyar fars və Azərbaycan dillərində yazdığı şeirləri ilə insanlara vətənpərvərlik duyğuları aşılayıb, milli həmrəylik ideyası təbliğ edib, milli ruhun oyanışında böyük xidmətlər göstərib. O, klassik şeirin bütün formalarına müraciət edib, ölməz sənət inciləri yaradıb.



Məhəmmədhüseyn Şəhriyar 1906-cı ildə Təbriz şəhərinin Bağmeşə bölgəsində, o zamanın tanınmış hüquqşünaslarından Hacı Mirağa Xoşginabinin ailəsində dünyaya gəlib. O, Təbrizdə orta təhsil alaraq Tehran Universitetinin Tibb fakültəsinə daxil olub. İlk şeir kitabı 1931-ci ildə Tehranda nəşr edilib.

Məhəbbət lirikasının böyük korifeyləri Hafiz və Füzulinin qəzəlləri ilə müqayisəyə qadir olan sevgi şeirləri, dünya həyatının mahiyyəti barədə fəlsəfi düşüncələri əks etdirən hikmətli qəsidələri, real həyat müşahidələrinin məhsulu kimi yaranan lirik poemalar müəllifə böyük şöhrət gətirib.

M.Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan, ilk növbədə, onun ölməz "Heydərbabaya salam" poeması olub. Şəhriyar "Heydərbabaya salam" əsəri ilə Azərbaycan türkünün milli həyatını poetik boyalarla təsvir edib. Sadə formada yazılan poema hələ əlyazma şəklində yayılaraq şöhrət tapıb və dövrün ziyalılarının diqqətini özünə cəlb edib. Nə qədər ki, Azərbaycan xalqı var olacaq, Şəhriyarın bu poeması nəsildən-nəslə ötürüləcək və yaddaşlarda qalacaq.

Böyük ustad 1988-ci il sentyabrın 18-də, 82 yaşında Təbrizdə vəfat edib. Onun vəfat etdiyi gün İranda "Fars dili və Şəhriyarın anım günü" kimi qeyd olunur.

# Tanınmış nizamişünas alim dünyasını dəyişib

Tanınmış nizamişünas alim, tərcüməçi, mətnşünas, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi, professor Xəlil Yusifli sentyabrın 15-də, ömrünün 87-ci ilində vəfat edib.



Xəlil Həmid oğlu Yusifli 17 iyul 1935-ci ildə Qazax rayonunun Əli Bayramlı (indiki Aslanbəyli) kəndində anadan olub. 1945-1955-ci illərdə doğulduğu kənd məktəbində təhsil alıb. 1955-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində oxuyub.

Xəlil Yusifli 1961-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlayıb. 1962-1965-ci illərdə institutun Qədim və Orta əsrlər ədəbiyyatı şöbəsinin aspirantı olub. 1967-ci ildə "Nizaminin lirikası" mövzusunda namizədlik (fəlsəfə doktoru), 1987-ci ildə "Nizami Gəncəvi və Şərq İntibahı" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 1989-cu ildə professor elmi adını alıb.

Ömrünü Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqinə həsr edən X.Yusiflinin "Nizaminin lirikası", "Şərqdə İntibah və Nizami Gəncəvi" monoqrafiyaları bu araşdırmaların nəticələri kimi ərsəyə gəlib. Bundan əlavə, Nizami əsərlərinin latın qrafikalı Azərbaycan əlifbasında yeddi cilddə çapa hazırlanmasını da alim həyata keçirib.

Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatının əsas tədqiqatçılarından olan X.Yusiflinin "Məhcur Şirvani yeni təfəkkür işığında", "Dünya ədəbiyyatı tarixi", "Orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri" kitabları işıq üzü görüb. O, klassik ədəbiyyatın bir çox nümunələrinin tərcüməsi və tərtibi sahəsində də fəaliyyət göstərib. M.Əvhədinin "Cami-Cəm" (Q.Beqdeli ilə), Arif Ərdəbilinin "Fərhadnamə", Məhsətinin "Rübailər", Nizami Gəncəvinin "Xosrov və Şirin" və bir sıra başqaları da bu qəbildəndir. Həqirinin "Leyli və Məcnun" poeması ədəbiyyatşünasın tərtibatı və geniş ön sözü ilə nəşr olunub.

X.Yusifli uzun illər Gəncə Dövlət Universitetində pedaqoji fəaliyyət göstərib, AMEA-nın Gəncə Bölməsi nəzdindəki Nizami Gəncəvi Mərkəzinin direktoru vəzifəsində çalışıb. 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına, 2015-ci ildə "Şöhrət" ordeninə layiq görülüb.

Allah rəhmət eləsin.

# Əməkdar mədəniyyət işçisi Atababa İsmayıloğlu vəfat edib

"Ədəbiyyat qəzeti"nin məsul katibi, teatrşünas, Əməkdar mədəniyyət işçisi Atababa İsmayıloğlu sentyabrın 18-də, 75 yaşında dünyasını dəyişib.



Atababa İsmayıl oğlu Hacıbabayev 22 sentyabr 1947-ci ildə Xırdalanda anadan olub. Azərbaycan Dövlət İncəsənət İnstitutunun Teatrşünaslıq fakültəsində professor Mehdi Məmmədovun kursunda təhsil alıb. Azərbaycan Teatr Cəmiyyətində redaktor, böyük redaktor, eyni zamanda 1971-1977-ci illərdə "Bakı teatrlarında" məcmuəsinin redaktoru vəzifələrində çalışıb.

1978-1981-ci illərdə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətində Nəşriyyat şöbəsinin müdir müavini, 7 dildə nəşr olunan "Sovet Azərbaycanı bu gün" məcmuəsinin redaktoru işləyib. 1981-1987-ci illərdə Teatr Xadimləri İttifaqının bədii rəhbəri olub. O, 1987-ci ilin yanvar ayından indiki "Ədəbiyyat qəzeti"ndə fəaliyyət göstərib. 2009-cu ildən 2014-cü ilədək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində də çalışıb.

Atababa İsmayıloğlu "İki cəbhənin əsgərləri", "Rza Əfqanlı", "Səhnə andı", "Unudulmaz səhnə ustaları", "Molla Qeybullanın sərgüzəştləri", "Mizan-tərəzi" və s. kitabların müəllifidir. Mətbuatda teatr və digər incəsənət sahələrinə dair 2000-dən çox məqaləsi dərc olunub. Mirzağa Əliyevin "Xatirələrim" kitabının tərtibçisi, Mişkinaz Cavidin "Xatirələrim", Adilə İsmayılovanın "Məxluqə Sadıqova", ikicildlik "Akademik Milli Dram Teatrının fotosalnaməsi" kitablarının ixtisas redaktoru, bir sıra kitabların redaktoru, tədris proqramlarının müəllifidir.

Atababa İsmayıloğlu 2005-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Allah rəhmət eləsin.

# Üzeyir Hacıbəyliyə həsr olunan nəşrlərin təqdimatı keçirildi

Xəbər verdiyimiz kimi, 18-26 sentyabr tarixində dahi bəstəkar, klassik Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin adı ilə şərəflənən bu il 14-cü dəfə gerçəkləşən, Beynəlxalq Musiqi Festivalı keçirilir. Heydər Əliyev Fondunun dəstəyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutan builki festivalın da zəngin proqramı var.





Sentyabrın 18-də – Milli Musiqi Günü ilə bağlı Üzeyir Hacıbəylinin Ev-Muzeyində böyük musiqiçiyə həsr olunan yeni nəşrlərin təqdimatı keçirildi. Tədbirdə muzeyin şöbə müdiri Gülnarə Ələsgərovanın "Üzeyir Hacıbəylinin Ev-Muzeyi", sənətşünaslıq üzrə fəlsəfə doktoru, "Teas-Press" nəşriyyat evinin "Üzeyir Hacıbəyli. Məqalələr, felyetonlar, resenziyalar", Abdulla Şaiqin Ev-Muzeyinin əməkdaşı Arzu Hacızadənin "A.Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri" kitabları və Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının "Musiqi aləmi" jurnalı təqdim olunurdu.

Tədbiri giriş sözü ilə Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov açaraq nəşrlər haqqında məlumat verdi. Bildirdi ki, "Üzeyir Hacıbəylinin Ev-Muzeyi" kitabında əsas məqamlardan biri vaxtilə muzeyin açılışında ulu öndər Heydər Əliyevin söylədiyi maraqlı nitq, muzeydəki eksponatlara diqqət yetirməsi və münasibət bildirməsinə də yer verilib.

İlk sayı işıq üzü görən "Musiqi aləmi" jurnalının təsisçisi və baş redaktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı dedi ki, dahi bəstəkar bizi həmişə öz işığı ətrafına yığıb. Ancaq iki il əvvələ qədər Üzeyir bəylə bağlı tədbirlərdə Azərbaycan musiqiçiləri həmişə fikirli və duyğulu olurdular: "Çünki dahi bəstəkarın ana yurdu, musiqimizin beşiyi Şuşa mənfur qonşularımızın işğalı altında idi. Ü.Hacıbəylinin ruhu da narahat idi. Şükürlər olsun, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz Qarabağımızı, Şuşanı düşmən tapdağından azad etdi. İndi Şuşa azaddır. Həm də Ü.Hacıbəylinin ruhu şaddır".

"Musiqi aləmi" jurnalı haqqında danışan musiqişünas diqqətə çatdırdı ki, jurnalı nəşrə hazırlayarkən qərara gəlmişdik ki, ilk sayını dahi bəstəkara həsr edək və belə də oldu.

Tədbirdə daha sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova, sənətşünaslıq üzrə elmlər doktoru, professor İmruz Əfəndiyeva, Abdulla Şaiqin Ev-Muzeyinin əməkdaşı Arzu Hacızadə, "Teas-Press" nəşriyyat evinin şöbə müdiri Günel Həsənova, şair-publisist Fəxrəddin Meydanlı çıxış edərək nəşrlərin əhəmiyyətindən danışdılar. Bildirdilər ki, Üzeyir Hacıbəyli haqqında nə qədər yazılsa da, yenə azdır. Çünki dahi bəstəkar haqqında keçmişdə yazılıb, bu gün yazılır və gələcəkdə də yazılacaq.

Çıxışlardan sonra gənc məktəbli Uğur Alizadə dahi bəstəkarın musiqi bəstələdiyi Abdulla Şaiqin "Dağlar" şeirini söylədi.

Sonda nəşrlərin müəllifləri tədbir iştirakçılarına təşəkkürlərini bildirdilər.

**S.Fərəcov**

# Kitab gözəlliyinin mahiyyəti

## Poliqrafçı Şəddat Cəfərovun müəllifi olduğu və haqqında yazılan miniatür kitabların təqdimatı

Sentyabrın 16-da Miniatür Kitab Muzeyində tanınmış poliqrafçı alim, naşir, yazıçı Şəddat Cəfərovun "Kitab gözəlliyinin elmi mahiyyəti" miniatür kitabının, onun haqqında nəşr edilmiş 4 miniatür kitabın (İsaq Əmənullayevin "Mənalı poliqrafçı ömrü", Sevda Əlibəylinin "İlk poliqrafçı alim", Fatma Həsənqızının "Acılı-şirinli günlər" və Elşad Səfərlinin "Qiymət" poeması) təqdimatı keçirilib.

Əvvəlcə erməni təxribatı nəticəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Şəddat Cəfərov təqdim edilən miniatür nəşrlər haqqında məlumat verib. Bildirib ki, kitab mədəniyyəti xalqımızın tarixinin, mədəni irsinin vacib bir hissəsidir. O, haqqında yazılan miniatür kitabların müəlliflərinə minnətdarlığını bildirib, artıq haqq dünyasına qovuşmuş Fatma Həsənqızının xatirəsinə ehtiramını ifadə edib.

Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı qeyd edib ki, hər yazarın taleyinə miniatür kitabların sırasına düşmək qismət olmur: "Şəddat Cəfərov özünü ölkə ictimaiyyətinə və ölkəmizin hüdudlarından kənarda istedadlı poliqrafçı alim, ictimai xadim, səmimi və qayğıkeş dost, gözəl ziyalı kimi tanıdıb. Onun başlıca xüsusiyyəti yüksək müşahidə qabiliyyətinə malik qələm adamı kimi bədii yaradıcılıqla məşğul olmasıdır".

"Söz" jurnalının baş redaktoru, publisist Sevda Əlibəyli Şəddat Cəfərovu 30 ildir tanıdığını qeyd edib: "O, işinin peşəkarı olmaqla yanaşı, həm də xeyirxah insandır. Peşəkarlıqla xeyirxahlıq birləşəndə daha çox faydalı olur. Əminəm ki, onun peşəsi və adı haqqında bundan sonra da yazılacaq. Fəxr edirəm ki, belə bir poliqrafçı alimin adı çəkildikcə mənim də onun haqqında qələmə aldığım kitab yada düşəcək".



"Xalq qəzeti"nin əməkdaşı, Əməkdar jurnalist Tahir Aydınoğlu təqdim olunan kitablar və tədbirin səbəbkarı haqqında fikirlərini bölüşüb: "Şəddat Cəfərov harada işləyirsə-işləsin, onun haqqında ancaq müsbət fikirlər eşitmək olar. O, 15 yaşından mətbəə işində çalışıb. Respublikada bu sahədə ilk və yeganə alimdir. Lakin bununla heç vaxt öyünmür, çox təvazökar insandır".

"Şuşa" qəzetinin baş redaktoru, tədqiqatçı-jurnalist Vasif Quliyev bildirib ki, Şəddat Cəfərov təkcə doğma Azərbaycanda deyil, keçmiş SSRİ-də də poliqrafiyanın kamil mütəxəssisi kimi tanınıb. Uzaq və yaxın xaricdə mədəniyyəti, elitar davranışı, zəngin təcrübəsi, istər poliqrafiya, istər iqtisadiyyat, istərsə də texnika və texnologiya sahəsində dərin biliyi ilə Vətənimizin başını daim uca edib. Sonradan Bakıya qayıdan Şəddat Cəfərov müxtəlif vəzifələrdə çalışıb.

Naşir Mehman Fərzəliyev həmkarı Ş.Cəfərovun uzun illər Azərbaycan Dövlət Nəşriyyatının baş direktor müavini və direktoru kimi məsul vəzifədə çalışmasından danışıb: "O, yuxusuz gecələri, zəngin elmi mütaliəsi hesabına müstəqil olaraq rəngli klişelər hazırlamağı öyrənməklə həmkarlarını və mətbəə rəhbərliyini heyrətə salıb, işə başladığı bir neçə ay ərzində altıncı dərəcəli usta adına layiq görülüb və istehsalatdan ayrılmayıb. Ali təhsil alaraq Moskvada aspiranturaya qəbul olunub və namizədlik dissertasiyasını müdafiə edərək yüksək zirvələrə nail olub".

Sonda iştirakçılar tədbirin keçirilməsində yaradılan şəraitə görə Miniatür Kitab Muzeyinin rəhbərliyinə və əməkdaşlarına təşəkkür ediblər.

# Xatirə təqvimi

**21-23 sentyabr**

## Azərbaycan

**21 sentyabr 1865** – Milli teatrımızın ilk peşəkar aktyorlarından biri, rejissor, teatr təşkilatçısı Cahangir Məşədi Rza oğlu Zeynalov (1865 – 22.10.1918) anadan olub. XX əsrin əvvəllərində "Nicat", "Səfa" və "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında aktyorluq edib, tamaşalara quruluş verib.

**21 sentyabr 1938** – Şairə, yazıçı Nurəngiz Gün (Quliyeva; 1938 – 20.12.2014) Bakıda doğulub. Azərbaycan Televiziyasının diktoru olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. "Var olun, qızlar..." filmində çəkilib.

**21 sentyabr 1947** – Əməkdar mədəniyyət işçisi Nizami Tahir oğlu Məmmədov (1947 – 16.9.2021) Naxçıvan şəhərində doğulub. Naxçıvan Dövlət Filarmoniyası estrada orkestrinin bədii rəhbəri və baş dirijoru olub, Naxçıvan şəhər 3 saylı Uşaq musiqi məktəbində çalışıb.

**21 sentyabr 1982** – Əməkdar artist Hacıməmməd Ələkbər oğlu Qafqazlı (Quliyev; 24.3.1898 –1982) vəfat edib. Akademik Dram Teatrında çalışıb. "Qızmar günəş altında", "Yeddi oğul istərəm" və s. filmlərdə çəkilib.

**22 sentyabr 1909** – İlk azərbaycanlı kinorejissorlardan Səməd Həşim oğlu Mərdanov (1909 – 6.8.1939) anadan olub. 1939-cu ildə "Kəndlilər" bədii filmini çəkib. Tanınmış aktyor Mustafa Mərdanovun qardaşıdır.

**22 sentyabr 1924** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (1924-2017) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**22 sentyabr 1929** – Publisist, ictimai xadim Əhməd bəy Qaraca (1929-2005) anadan olub. Türkiyədə M.Rəsulzadənin yaratdığı Azərbaycan Kültür Dərnəyinə 1955-ci ildən rəhbərlik edib, dərnəyin "Azərbaycan" jurnalının redaktoru olub.

**22 sentyabr 1929** – Əməkdar elm xadimi, filosof Həsən İsmayıl oğlu Şirəliyev (1929 – 30.11.1997) anadan olub.

**22 sentyabr 1938** – Əməkdar incəsənət xadimi, tarzən-pedaqoq Oqtay Süleyman oğlu Quliyev (1938 – 6.4.2021) Ağdamda doğulub. Azərbaycan Milli Konservatoriyasının Xalq çalğı alətləri kafedrasının professoru olub.

**22 sentyabr 1947** – Əməkdar mədəniyyət işçisi Atababa İsmayıl oğlu Hacıbabayev (1947 – 18.9.2022) anadan olub. Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**22 sentyabr 1964** – Məşhur xanəndə, Qarabağ muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsi İslam Əbdül oğlu Abdullayev (1876-1964) vəfat edib. "Segah" muğamının təkrarsız ifaçısı (Segah İslam) kimi tanınıb.

**23 sentyabr 1928** – Tanınmış opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (1928 – 16.12.2011) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti (1951-1988) olub. Əsas partiyaları: Nigar ("Koroğlu" – Ü.Hacıbəyli), Nərgiz, Gülzar ("Nərgiz", "Şah İsmayıl" – M.Maqomayev), Sevil ("Sevil" – F.Əmirov) və s.

**23 sentyabr 1928** – Tanınmış arxeoloq, tarix elmləri doktoru Rauf Maqomedoviç Munçayev (1928 – 4.7.2021) Zaqatalada doğulub. Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru olub.

**23 sentyabr 1929** – Yazıçı-jurnalist, Əməkdar incəsənət xadimi Əfqan (Hacıağa oğlu Əsgərov; 1929 – 13.2.2022) Salyan rayonunun Qarabağlı kəndində anadan olub. "Həsrət də bir vüsaldır", "Qartal əfsanəsi" romanları, "Dədə Bəhmən" trilogiyası və s. əsərlərin müəllifidir.

**23 sentyabr 1929** – Tarixçi, şərqşünas, türkoloq Yusif Bəhlul oğlu Yusifov (1929 - 4.1.1998) Qərbi Azərbaycanın Vedi mahalında doğulub. Azərbaycan Pedaqoji Universitetinin professoru, mixi yazılar üzrə mütəxəssis olub.

**23 sentyabr 1957** – Əməkdar artist, qarmon ifaçısı Etibar İsmayıl oğlu Qasımbəyli (1957 – 27.10.2020) Bakıda doğulub. Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti, Azərbaycan Dövlət Konsert Birliyinin musiqi rəhbəri olub.

**23 sentyabr 1969** – Şair-publisist Ülvi Yusif oğlu Bünyadzadə (1969 – 20.1.1990) doğulub. 20 Yanvar qırğınında şəhid olub.

**23 sentyabr 1970** – Görkəmli yazıçı-dramaturq, ssenarist Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 26.3.1910 – 1970) vəfat edib. "Toy", "Nişanlı qız", "Əliqulu evlənir" və s. pyeslərin, "Əhməd haradadır?", "Ulduz" filmlərinin ssenari müəllifidir.

**23 sentyabr 2013** – Əməkdar artist Muxtar Şahmar oğlu İbadov (2.2.1955 – 2013) vəfat edib. Şəki Dram, Dövlət Gənclər teatrlarının aktyoru olub, filmlərə çəkilib.

**23 sentyabr 2014** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (12.8.1921 – 2014) vəfat edib. "Haradasan dost, harada", "Adamlar və talelər", "Sönmüş ulduzların işığı" və s. romanların müəllifidir.

**23 sentyabr 2015** – Şair, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (24.12.1939 – 2015) vəfat edib. Kitabları: "Durnalar lələk salır", "Ömrün yarı yaşında", "Saxla izimi, dünya" və s.

## Dünya

**21 sentyabr 1866** – İngilis yazıçısı Herbert Uells (Herbert George Wells; 1866-1946) anadan olub. Elmi-fantastik əsərlərin müəllifidir: "Zaman maşını", "Gözəgörünməz adam", "Aləmlərin savaşı", "Qarışqalar səltənəti" və s.

**21 sentyabr 1911** – Rus-sovet aktyoru və müğənnisi Mark Bernes (1911-1969) anadan olub.

**22 sentyabr 1694** – İngilis yazıçısı Filip Dormer Stenxop Çesterfild (Philip Dormer Stanhope Chesterfield; 1694-1773) anadan olub.

**22 sentyabr 1875** – Rəssam, bəstəkar, professional Litva musiqisinin banisi Mikaloyus Çurlonis (Mikalojus Konstantinas Ciurlionis; 1875–1911) anadan olub.

**22 sentyabr 1938** – Amerika aktyoru və müğənnisi Din Rid (Dean Cyril Reed; 1938–1986) anadan olub.

**23 sentyabr 1901** – Çexiya yazıçısı və şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1984) laureatı Yaroslav Seyfert (Jaroslav Seifert; 1901–1986) anadan olub.

**23 sentyabr 1913** – Gürcü bəstəkarı, SSRİ Xalq artisti Aleksey Davidoviç Maçavariani (1913–1995) anadan olub. "Pələng dərisi geymiş pəhləvan" və "Otello" baletlərinin müəllifidir.

**23 sentyabr 1930** – Amerika cazmeni və pianoçusu Rey Çarlz (Raymond Charles Robinson; 1930 – 10.6.2004) anadan olub.

**23 sentyabr 1938** – Alman aktrisası Romi Şnayder (Romy Schneider – Rosemarie Magdalena Albach-Retty; 1938–1982) Vyanada doğulub. Filmləri: "Əsas sevməkdir", "Kristina", "Köhnə tüfəng" və s.

**Hazırladı: Vüqar Orxan**

# Ştefan Svayqın seçilmiş əsərləri nəşr olunub

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin 150 cildlik "Dünya ədəbiyyatı inciləri" seriyasından növbəti cild – "Ştefan Svayq. Seçilmiş əsərləri" kitabı nəşr olunub.




Tərcümə Mərkəzindən bildirilib ki, kitaba dünya şöhrətli Avstriya yazıçısı Ştefan Svayqın (Stefan Zweig, 1881-1942) "Yad qadının məktubu", "Dayə", "Dəhşətli sirr", "Amok", "Qorxu", "Ay işığında küçə", "Bir qadının həyatından iyirmi dörd saat" hekayələri, "Bəşəriyyətin bəxt ulduzları", "Jozef Fuşe. Siyasi xadimin portreti" kimi məşhur miniatürləri və tanınmış alman dili tərcüməçisi Vilayət Hacıyevin yazıçının həyatı və yaradıcılığı haqqında qələmə aldığı "Ştefan Svayq — "Böyük avropalı" yazısı daxil edilib.

Ştefan Svayqın əsərlərini Azərbaycan dilinə tanınmış bədii tərcümə ustaları Vilayət Hacıyev, Çərkəz Qurbanlı, Zahid Məmmədov, Nəriman Əbdülrəhmanlı, Həmid Arzulu, Qabil Əhmədov çeviriblər.

# "Müasir Azərbaycan musiqisinin banisi"

## Üzeyir Hacıbəyli haqqında elektron məlumat bazası və virtual sərgi

18 sentyabr ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Əlamətdar gün Azərbaycan klassik musiqi sənətinin banisi, müsəlman Şərqində ilk operanın müəllifi, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü ilə bağlıdır. Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 18 sentyabr tarixli fərmanı ilə bu gün hər il ölkə miqyasında keçirilir.

Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisinin bütün janrlarının – mahnıların, rəqslərin, aşıq yaradıcılığının və professional muğam sənətinin üslub xüsusiyyətlərini birləşdirərək özünün orijinal üslubunu yaradıb. Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə əbədi yazılan, heç zaman aktuallığını itirməyən əsərlər bəstələyib.

Sentyabrın 18-dən 26-dək ölkəmizdə Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı keçirilir. Heydər Əliyev Fondunun dəstəyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən festivalın proqramına uyğun olaraq, Milli Kitabxananın əməkdaşları tərəfindən "Müasir Azərbaycan musiqisinin banisi: Üzeyir Hacıbəyli" adlı elektron məlumat bazası hazırlanıb.

Elektron məlumat bazası "Rəsmi sənədlər", "Həyat və yaradıcılığı", "Həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxslər Üzeyir Hacıbəyli haqqında", "Əsərləri", "Haqqında", "Xatirəsinin əbədiləşdirilməsi", "Mükafatlar", "Fotoqalereya", "Filmoqrafiya" və "Videoqalereya" bölmələrindən ibarətdir.

***

Qeyd edək ki, Milli Kitabxananın əməkdaşları tərəfindən "18 sentyabr – Milli Musiqi Günü" adlı virtual sərgi də hazırlanıb.

# Tarix Muzeyində dahi bəstəkarla bağlı eksponatlar

Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda Azərbaycan professional musiqi sənətinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunan tədbirlə bağlı afişalar, Etnoqrafiya fondunda isə böyük sənətkarın ailəsinə aid kolleksiya qorunur.

Bu barədə muzeydən məlumat verilib. Bildirilib ki, qeyd olunan nümunələr arasında Ü.Hacıbəylinin ailəsinə (anası Şirin) məxsus süfrə, boğça, quranqabı, müxtəlif geyim nümunələri və s. mühafizə edilir. Digər bir nümunə isə Şirin xanıma məxsus geyim dəstidir. Mavi rəngli geyim dəsti ipək parçadan hazırlanıb.

Bəsrəkara aid digər eksponatlar – 1913-cü il iyulun 30-da Ü.Hacıbəyli tələbə olarkən Peterburqdan Azərbaycanın Xalq artisti Hüseynqulu Sarabskiyə yazdığı məktubun surəti və bəstəkarın fotoşəkili muzeyin Köməkçi materiallar fondunda saxlanılır.

# Xalça Muzeyində "Həyatın ilmələri"

Azərbaycan Milli Xalça Muzeyində "Həyatın ilmələri" adlı sənədli film nümayiş etdirilib.

Muzeydən bildirilib ki, ekran işi muzeyin baş texnoloqu, xalça sənətinin inkişafında və gələcək nəsillərə ötürülməsində mühüm rolu olan Əməkdar mədəniyyət işçisi Zəhra Əliyevaya həsr olunub. Ekran əsəri Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyası MMC tərəfindən çəkilib.

Sənədli filmdə Zəhra Əliyevanın həyat hekayəsi, fəaliyyəti, həmçinin Lətif Kərimov, Cəfər Müciri və Kamil Əliyev kimi görkəmli xalçaçı-rəssamlar haqqında maraqlı xatirələr öz əksini tapıb.

Filmin ssenari müəllifi Əməkdar mədəniyyət işçisi Şirin Məlikova, rejissoru Mübariz Nağıyevdir.

№69 (1942)
21 sentyabr 2022
www.medeniyyet.az

# Filmlərimiz Daşkənddə nümayiş etdirilib

əvvəli səh. 1-də

Sentyabrın 15-də Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) XIV Daşkənd Film Festivalı çərçivəsində "Azərbaycan kinosu günləri"nin açılışı olub.

Azərbaycan Mədəniyyət Nazirliyi, "Özbəkkino" Milli Agentliyi və Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşəbbüsü və dəstəyi ilə keçirilən tədbirdə iştirakçılar ulu öndər Heydər Əliyevin mərkəzin qarşısındakı abidəsi və şəhidlərə həsr olunmuş memorial lövhə önünə çiçək dəstələri düzüblər.

"Azərbaycan kinosu günləri"nin açılışı qardaş ölkədə böyük maraqla qarşılanıb, tədbirdə Özbəkistanın mədəniyyət, incəsənət ictimaiyyəti, yerli azərbaycanlılar, təhsil müəssisələrinin müəllim və tələbələri, mətbuat nümayəndələri iştirak ediblər.

Açılış mərasimində Ermənistan silahlı qüvvələrinin son günlər Azərbaycanla sərhəddə törətdiyi təxribat zamanı həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AMM-in direktoru Samir Abbasov çıxış edərək Azərbaycanla Özbəkistan arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdiyini, Prezident İlham Əliyevin Özbəkistana səfəri, keçirilən görüşlər, imzalanan müqavilələr ölkələrimiz arasında əməkdaşlıqda yeni imkanlar açdığını deyib. O, mədəniyyət sahəsində əlaqələrdən danışaraq, həm ötən il, həm də bu il Daşkənddə keçirilən beynəlxalq kinofestivalda Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizin təmsil olunduğunu, Azərbaycan filmlərinin Özbəkistanda böyük maraq və rəğbətlə qarşılandığını söyləyib.




"Özbəkkino" Milli Agentliyi"nin təmsilçisi, "Gənclik" Kinostudiyasının rəhbəri Adxam Nurkulov ölkədə son vaxtlar kinematoqrafçılara yaradılan şərait haqqında məlumat verib, festivalın əhəmiyyətindən, Azərbaycan kinematoqrafçıları ilə əməkdaşlıqdan danışıb.

Tədbirdə çıxış edən Azərbaycanın Xalq artisti, müğənni Gülyanaq Məmmədova bu günlərdə Özbəkistanın Xalq artisti adına layiq görüldüyü üçün Prezident Şavkat Mirziyoyevə minnətdarlıq edib, festivalın işinə uğurlar arzulayıb.

Sonra kinorejissorlar Ayaz Salayevin "Torpaq" və İlqar Nəcəfin "Suğra və oğulları" filmləri nümayiş etdirilib.

Hər iki rejissor filmləri haqqında danışaraq fikirlərini bölüşüblər.

Mədəniyyət Nazirliyinin sifarişi, Qərbi Azərbaycan İcmasının dəstəyi ilə "Salnaməfilm" studiyasında istehsal olunan "Torpaq" sənədli filmi (ssenari müəllifi Ayaz Salayev) 1988-ci ildə azərbaycanlıların öz dədə-baba yurdundan – Qərbi Azərbaycandan qovulmasından bəhs edir. Ekran əsərində soydaşlarımızın deportasiyası ilə bağlı tarixi faktlar, onların acı xatirələri əksini tapıb.

Bakı Media Mərkəzi, "Butafilm", "Arizona Productions" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsalı olan "Suğra və oğulları" filmində İkinci Dünya müharibəsi dövründə Azərbaycanda, ucqar kənddə yaşayan insanların taleyindən bəhs olunur. Müharibə dövrünün keşməkeşlərini özündə cəmləşdirən filmdə sevgi və nifrətlə dolu həyat əksini tapıb.

Hər iki film tamaşaçıların, o cümlədən festival iştirakçılarının böyük marağına səbəb olub.

Qeyd edək ki, "Azərbaycan kinosu günləri" çərçivəsində hər iki film 17 sentyabrda Buxara şəhərində də nümayiş olunub.

Sentyabrın 18-də "İpək Yolunun dürdanəsi" XIV Daşkənd Beynəlxalq Film Festivalının bağlanış mərasimi keçirilib.

Mərasimdə çıxış edən Özbəkistan Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimov ölkə başçısının təşəbbüsü ilə keçirilən festivalın yüksək əhval-ruhiyyə ilə tarixə düşəcəyini söyləyib.

"Özbəkkino" Milli Agentliyinin baş direktoru Firdavs Abduxolikov ölkədə kinematoqrafiyanın inkişafının dövlət başçısının diqqətində olduğunu qeyd edib, 1968-ci ildə əsası qoyulmuş Daşkənd kinofestivalının yenidən dirçəldilməsi ideyası və təşəbbüsünün Prezident Şavkat Mirziyoyevə məxsus olduğunu söyləyib.

Bağlanış mərasimində "Kino 5 gündə" beynəlxalq müsabiqəsinin qalibləri mükafatlandırılıb. Azərbaycanlı gənc kinorejissor Aleksandr Hacıyevskinin "Turan" qısametrajlı filmi müsabiqənin xüsusi mükafatına layiq görülüb.

"Özbəkkino"nun baş direktoru Firdavs Abduxolikov qaliblərə mükafatlar, bütün iştirakçılara isə xatirə hədiyyələri təqdim edib.

# Ölkəmiz İzmirdə Beynəlxalq Çəpni Barış Festivalında təmsil olunub




17-18 sentyabr tarixlərində Türkiyənin İzmir şəhərində ilk dəfə Beynəlxalq Çəpni Barış Festivalı keçirilib. Festivalda ölkəmizi Mədəniyyət Nazirliyinin nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətində nazirliyin Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin əməkdaşı Nicat Şərifov, Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəis müavini Vaqif Alıyev, idarənin məsləhətçisi Cəbrayıl Qəniyev və aşıq Qəlbinur İbrahimli yer alıb.

Qədim Oğuz türklərinin boylarından biri olan çəpnilər (çəpni – igid, cəsur anlamına gəlir) hazırda müxtəlif ölkələrdə yaşayırlar və özünəməxsus adət-ənənələri ilə seçilirlər.

İzmir Böyük Şəhər Bələdiyyəsinin təşkilatçılığı ilə gerçəkləşən festivalda ölkəmizlə yanaşı, İran, İraq, Suriya və Moldovadan nümayəndələr, eləcə də Türkiyənin müxtəlif bölgələrindən çəpnilər də iştirak ediblər.

Tədbirin ilk günü festival iştirakçıları izdihamlı yürüşlə Berqama Cümhuriyyət meydanına gəliblər. Çəpnilərin mədəniyyətini əks etdirən rəsm əsərlərindən ibarət sərgi ilə tanışlıqdan sonra festivalın açılış mərasimi keçirilib. Mərasimə Türkiyə Böyük Millət Məclisinin deputatları, bələdiyyə sədrləri, digər rəsmilər qatılıblar.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəis müavini Vaqif Alıyev çıxış edərək Azərbaycanda çəpnilərin Kürdəmir, Kəlbəcər, Şamaxı, Şabran rayonlarında məskunlaşdığı barədə məlumat verib. Həmçinin çəpnilərin kompakt yaşadığı Kəlbəcər rayonunun Çəpli kəndinin otuz ilə yaxın Ermənistanın işğalı altında olduğu, kəndin 150 ailəsinin köçkün həyatı yaşadığı diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər sayəsində, illərlə yurd həsrəti yaşayan digər soydaşlarımızla yanaşı, onlar da tezliklə doğma torpaqlarına qovuşacaqlar.

Çıxış edən digər natiqlər dünyanın müxtəlif guşələrində yaşayan çəpnilərin mədəni dəyərlərindən, adət-ənənələrindən söz açıb, bu irsin qorunub saxlanılmasının vacibliyini vurğulayıblar.

İki gün davam edən festivalda sənətçilərin, rəqs qruplarının, şairlərin iştirakı ilə mədəni proqramlar təşkil olunub. Proqramlarda Azərbaycandan aşıq Qəlbinur İbrahimli də ifaları ilə tamaşaçıların rəğbətini qazanıb.

# Arxangelsk məktəbində "Azərbaycan musiqi mədəniyyəti mərkəzi"

Rusiyanın Arxangelsk şəhərindəki 31 nömrəli incəsənət məktəbində M.Maqomayev adına "Azərbaycan musiqi mədəniyyəti mərkəzi"nin açılışı olub. Layihə "Arxangelsk vilayətinin Azərbaycan diasporu" İctimai Birliyi tərəfindən 2022-ci ildə Rusiya Prezidenti tərəfindən elan edilmiş "Rusiya xalqlarının mədəni irsi" ili çərçivəsində həyata keçirilib.




Arxangelsk vilayətindəki Azərbaycan diasporunun rəhbəri Tərlan Qasımov deyib ki, "Rusiya xalqlarının mədəni irsi ili" çərçivəsində bu ilin aprelində Azərbaycan diasporunun dəstəyi ilə M.V.Lomonosov adına Şimali Arktika Federal Universitetində görkəmli geoloq Fərman Salmanovun adını daşıyan elmi laboratoriya açılıb. Bu gün isə Müslüm Maqomayev adına mərkəz açılır.

Sentyabrın 18-də Azərbaycanda Milli Musiqi Gününün qeyd olunduğunu diqqətə çatdıran T.Qasımov dahi bəstəkar Üzeyir Hacıbəyli və dünya şöhrətli müğənni Müslüm Maqomayevin həyat və yaradıcılığından danışıb.

Tədbirdə məşhur opera müğənnisi, SSRİ və Azərbaycanın Xalq artisti Tamara Sinyavskayanın, Azərbaycanın Xalq artisti Emin Ağalarovun videoətbrikləri nümayiş olunub.

Mərasimdən sonra keçirilən konsertdə Azərbaycan xalq mahnıları ilə yanaşı, Müslüm Maqomayevin repertuarından mahnılar səsləndirilib.

Məktəbin xor şöbəsinin vokal qrupu "Cücələrim" mahnısını ifa edib. Həmçinin dinləyicilər Rafiq Məmmədovun kamançada ifasından həzz alıblar.

# Madriddə qədim dövlətçilik tariximizə dair dəyirmi masa

İspaniyanın Milli Kitabxanasında Azərbaycanın sabiq xarici işlər naziri, tarix elmləri doktoru, professor Həsən Həsənovun iştirakı ilə "Azərbaycan dövlətinin mənşəyi və onun İspaniya Krallığı ilə ilk diplomatik təmasları" mövzusunda dəyirmi masa keçirilib.




Tədbirdən əvvəl İspaniya Milli Kitabxanasının arxivində saxlanılan qədim Azərbaycan dövlətinin əks olunduğu xəritələr və azərbaycanlı tarixçi-diplomat Oruc bəy Bayatın müəllifi olduğu "Don Xuanın səyahət qeydləri" adlı əsərin orijinal nüsxəsi ilə tanışlıq olub.

Dəyirmi masada Rey Xuan Karlos Universitetinin müəllimi Rəna Qafarova Azərbaycanla İspaniya arasında ədəbiyyat sahəsində əlaqələrdən danışıb. Bildirib ki, XVII əsrdə Oruc bəyin müəllifi olduğu əsər Azərbaycan müəllifinin ispan dilində yazılmış və İspaniyada çap olunmuş ilk səyahət kitabıdır.

Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov diqqətə çatdırıb ki, təbdir iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə təsadüf edir. O, qədim Azərbaycan dövlətləri haqqında ispan dilində kitabın nəşri təşəbbüsünə görə professor Həsən Həsənova təşəkkürünü bildirib. Qeyd edib ki, kitabda xəritələr və əlyazmaların elektronlaşdırılması təqdiqatları aparılması zamanı mənbələrin əsl nüsxələri ilə tanış olmaq imkanı yaradır. "Əminəm ki, bundan sonra da İspaniya Milli Kitabxanası ilə əlaqələr inkişaf edəcək", - deyə səfir vurğulayıb.

Sonra Həsən Həsənov "Atropatena və Albaniya dövlətlərinin yaranması" mövzusunda məruzə ilə çıxış edib. Elmi tədqiqatlarında Avropa alimlərinin araşdırmaları və Avropa kartoqraflarının xəritələrindən istifadə etdiyini söyləyən H.Həsənov qədim Atropatena və Albaniya dövlətlərinin yaranmasından söz açıb. Qədim yunan, romalı müəllif və tarixçilərə istinad edən H.Həsənov Plutarx, Strabon, Avicnanın əsərlərində xalqımızın, müasir fonetik variantda "azərbaycanlılar" mənasını verən "Atropatenes, Atropatii" adlandırıldığını qeyd edib.

Madrid Muxtar Universitetinin Mərkəzi Asiya üzrə müəllimi və İspaniya Şərqşünaslar Assosiasiyasının baş katibi Xesus Xil Fuensantanın "Erkən Azərbaycan dövlətləri barədə" məruzəsi dinlənilib. O, qədim Kür-Araz mədəniyyətindən və Azərbaycanın bu mədəniyyətdəki rolundan danışaraq Azərbaycanın Şərq və Qərb arasında bir körpü olduğunu bildirib.

## Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 171 il əvvəl...



**21 sentyabr 1851-ci ildə** ABŞ hökuməti Amerikanın yerli (aborigen) hindu qəbilələri ilə ilk saziş imzalayıb. Sazişə əsasən, hindular üçün müəyyən ərazilər (rezervasiyalar) ayrılıb, hər il onlara pul mükafatı verilməsi nəzərdə tutulub. Hindu qəbilələri isə yaşadıqları ərazilərdə ABŞ hökumətinə dəmiryolu çəkməyə icazə veriblər.

### 114 il əvvəl...

**22 sentyabr 1908-ci ildə** Bolqarıstan Osmanlı imperiyasının tərkibindən çıxaraq müstəqilliyini elan edib. XIV əsrin sonundan Osmanlının nəzarətinə keçən Bolqarıstan 1877-1878-ci illərin Rusiya-Türkiyə müharibəsindən sonra muxtar knyazlıq statusu almışdı. 1908-ci ildə Rusiyanın köməyi ilə müstəqillik qazandı.

### 102 il əvvəl...

**22 sentyabr 1920-ci ildə** Azərbaycanın bolşevik hökuməti (Müvəqqəti İnqilab Komitəsi) müvəqqəti yerli hakimiyyət orqanlarının – yoxsul komitələrinin yaradılması barədə qərar qəbul edib. Qərar ölkədə hakimiyyətin xalqa məxsus olması illüziyasını yaratmaq niyyəti güdürdü. Yoxsul komitələri bir ilə yaxın fəaliyyət göstərdi və 1921-ci ilin mayında I Ümumazərbaycan sovetlər qurultayından sonra yerlərdə fəhlə-kəndli sovetləri yaradılmağa başlandı.

### 62 il əvvəl...

**22 sentyabr 1960-cı ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Mali müstəqilliyini elan edib. Mali 1890-cı ildən Fransanın nəzarətində (Fransa Sudanı adı ilə) idi. Müstəqillik qazanandan sonra ölkədə 1992-ci ilədək hərbi diktatura mövcud olub.

### 58 il əvvəl...

**21 sentyabr 1964-cü ildə** Britaniyanın müstəmləkəsi olan Malta müstəqilliyini elan edib. Aralıq dənizindəki ada-dövlət Malta 1800-cü ildə ingilislərin nəzarətinə keçmiş və burada Britaniyanın hərbi-dəniz bazası qurulmuşdu. Malta müstəqillik əldə etsə də, formal olaraq Britaniya Birliyinə daxildir.

### 42 il əvvəl...



**22 sentyabr 1980-ci ildə** İraq-İran müharibəsi (1980-1988) başlayıb. İraq qoşunları İranla sərhəddə Şatt əl-Ərəb çayını nəzarətə götürməsi müharibənin faktiki səbəblərindən idi. Əsas geosiyasi səbəb isə Qərbin, xüsusilə də ABŞ-ın İranda yeni yaranan islam dövlətçiliyini devirmək idi. 8 il sürən müharibə rəsmən "heç-heçə" başa çatdı, iki ölkənin sərhədində 1980-ci ilədək mövcud olan status-kvo bərpa edildi. Lakin bu müharibə hər iki tərəfdən 1 milyondan çox insan itkisinə başa gəldi. Müharibədə İraqa yardım göstərən ABŞ 1991-ci ildən siyasətini dəyişərək Səddam Hüseyn rejimini devirmək qərarına gəldi və bunu 2003-cü ildə həyata keçirdi.

### 41 il əvvəl...

**21 sentyabr 1981-ci ildə** Mərkəzi Amerikada, Karib hövzəsində yerləşən Beliz müstəqilliyini elan edib. XVI əsrdə İspaniya tərəfindən işğal olunan Beliz 1862-ci ildə Britaniyanın nəzarətinə keçmişdi. Beliz Mərkəzi Amerikada müstəmləkə olmaqdan qurtulan sonuncu ölkələrdəndir.

**1981-ci ildə** BMT Baş Assambleyası tərəfindən 21 sentyabr – Beynəlxalq Sülh Günü ( "Qlobal atəşkəs və zorakılıqsız gün") təsis edilib.

### 31 il əvvəl...

**21 sentyabr 1991-ci ildə** Rusiya və Qazaxıstan prezidentləri B.Yeltsin və N.Nazarbayev Ermənistan-Azərbaycan münaqişəsində vasitəçilik təşəbbüsü ilə Bakıya gəliblər. Bakıda Dağlıq Qarabağa (Xankəndiyə), oradan isə Yerevana gedən Rusiya və Qazaxıstan rəhbərləri sentyabrın 23-də Jeleznovodskda (Rusiya) Azərbaycan və Ermənistan prezidentləri A.Mütəllibov və L-T.Petrosyanın ilk görüşünü təşkil etdilər.

### 29 il əvvəl...

**21 sentyabr 1993-cü ildə** Rusiyada prezident-parlament qarşıdurması başlanıb. Prezident Boris Yeltsin Ali Sovetin buraxılması, Konstitusiya islahatları və yeni qanunverici orqana – Dövlət Dumasına seçkilər haqqında fərman verib. Ali Sovet bununla razılaşmadı və vitse-prezident Aleksandr Rutskoyu prezident elan etdi. Ölkədə faktiki ikihakimiyyətlilik yarandı. Bu vəziyyət oktyabrın 3-4-dək (Ali Sovetin gülləbaran edilməsi) davam etdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi iş yoldaşları Elşən Hacıbabayevə atası

**Atababa Hacıbabayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5072. **Sifariş:** 2711

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641